F. Köçərli adına Respublika Uşaq Kitabxanası



# İşıqlı insan, zəkalı alim, novator yazıçı – Kamal Abdulla

Azərbaycan alimi, yazıçısı, ictimai xadimi, filologiya elmləri doktoru, professor, Azərbaycan Respublikasının xalq yazıçısı  və əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, Birinci dərəcəli dövlət müşaviri Kamal Abdullanın 75 illiyi münasibətilə kütləvi oxucular üçün hazırlanmış  metodik vəsait

Bakı – 2025

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

Azərbaycan alimi, yazıçısı, ictimai xadimi, filologiya elmləri doktoru, professor, Azərbaycan Respublikasının xalq yazıçısı  və əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, Birinci dərəcəli dövlət müşaviri Kamal Abdullanın 75 illiyi münasibətilə kütləvi oxucular üçün  hazırlanmış metodik vəsait / F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; red. R.Məmmədli - Bakı:  2025. – 43 s.

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: info@clb.az.**

**İnternet ünvanı: www.clb.az**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2025**

## Ensiklopedik biliyə, miqyaslı dünyagörüşə malik insan - Kamal Abdulla

*Bir vərəq kağızın ağ toranlığında*
*hərfləri cıza-cıza yol gedirəm.*
*Əyri-üyrü cızıqlar bir-birilə birləşir*
*və mənim beynimin, mənim varlığımın*
*ifadəsinə dönür.*
**Kamal Abdulla**

Müasir ədəbiyyatın aparıcı tendensiyalarını özündə əxz edən, yüksək bədii siqlətli, mütərəqqi ideyaları təbliğ edən elitar bədii sənət nümunələri dünya ədəbiyyatının ümumi sərvətləri kimi bəşəriyyətin ortaq dəyərlərini daha da zənginləşdirir. Milli ədəbiyyatımızın görkəmli nümayəndəsi, istedadlı yazıçı-dramaturq, elm, mədəniyyət və siyasət xadimi, Əməkdar elm xadimi, Xalq yazıçısı, akademik Kamal Abdullanın çoxşaxəli yaradıcılığı dünya ədəbi prosesində xüsusi yer tutur. Dünya və Azərbaycan mədəniyyəti irsinə, onun ədəbi-fəlsəfi, bədii-estetik, dini-tarixi dəyərlərinə dərindən bələd olan sənətkarın yaradıcılığı özünəməxsus fərdi üslubunun orijinallığı ilə seçilir. Kamal Abdulla yaradıcılığına bir neçə yöndən nəzər salmaq olar: Yazıçı-dramaturq Kamal Abdulla, şair-esseist Kamal Abdulla, dilşünas Kamal Abdulla, türkoloq Kamal Abdulla, ədəbiyyatşünas Kamal Abdulla, mədəniyyətşünas-kulturoloq Kamal Abdulla, ictimai xadim, təhsil təşkilatçısı Kamal Abdulla. Ensiklopedik biliyə, miqyaslı dünyagörüşə malik yazıçının nəsri onun çoxşaxəli yaradıcılığının özülünü təşkil edir. Həmişə olduğu kimi, bu gün də xarici ölkələrdə Kamal Abdulla yaradıcılığı diqqət mərkəzindədir. İstedadlı yazıçının bədii əsərləri-pyesləri, hekayələri, romanları, esseləri və şeirləri həm respublikamızda, həm də xarici ölkələrdə çap olunmuşdur. Onun romanları aktuallığına, mövzusuna, janrına, üslubuna, problematikasına və elitar səviyyəsinə görə dünya ədəbi prosesində diqqəti daha çox cəlb edir. Və zaman keçdikcə bu əsərlər öz estetik təravətini, bədii tutumunu və müasirliyini saxlayır. Vaqif Bayatlı Odərin sözlərilə desək: "Əslində bir var zaman yazıçıları, bir də var zamansız yazıçılar. Yəni zamandan yuxarı olan yazıçılar. Çünki əsl yaradıcının zamana dəxli yoxdur".Yazıçının əsərləri içərisində xüsusi yer tutan "Yarımçıq əlyazma" romanına dünya ədəbiyyatı müstəvisində əlamətdar hadisə kimi dəyər verilib. Əsər haqqında yüzdən çox məqalə və resenziya yazılıb. Onu da qeyd edək ki, Latın Amerikası ölkəsindən Braziliyada Azərbaycan ədəbiyyatından nəşr edilən yeganə kitab da "Yarımçıq əlyazma" romanıdır. Rusiya tənqidçiləri bu əsəri "postmodernizmin ən parlaq nümunəsi", türkiyəli tənqidçilər isə bu əsərə görə Kamal Abdullanı "Azərbaycanın Borxesi" adlandırıblar. Tanınmış rus yazıçısı Aleksandr Tkaçenko yazmışdır ki, "Folkner öz Yoknapatofunu, Markes öz Makondasını, Fazil İsgəndər öz Çeqemini yaradan kimi, Kamal Abdulla da öz "Yarımçıq əlyazma"sını yaradıb".

Ümumiyyətlə, Kamal Abdulla "Yarımçıq əlyazma" və "Sehrbazlar dərəsi" romanları ilə Azərbaycan ədəbiyyatının xaricdə daha yaxından tanıdılmasında öz töhfələrini verib. Ədəbi tənqidin də qeyd etdiyi kimi, bu roman dünya ədəbiyyatının ən çox sevilən əsərlərilə bir sırada durur. 2015-ci ildə yazıçının İtaliyada nəşr olunan "Yarımçıq əlyazma" romanı da bu ölkənin məşhur Skanno mükafatının ədəbiyyat üzrə xüsusi prizinə layiq görülüb. Amerikanın məşhur ədəbiyyat nəzəriyyəçisi, mifologiya və ritorika üzrə mütəxəssis Maks Statkiyeviç "Yarımçıq əlyazma" romanını təhlil edərək belə bir elmi qənaətə gəlir: "Kamal Abdullanın təhkiyəçisi, yəni, Dədə Qorqudun xələfi və katib deyir ki, "Bu, sirri - Xudadır!" Ancaq bu həm də şeytani sirr deyilmi (və yaxud, tutalım, Mixail Bulqakovun və ya Kamal Abdullanın özünün sənətkar sirri deyilmi) ? İddia etsən ki, öz ilahi anlamında "əlyazmalar yanmır", bu, Yazının ( və sənətin ) əbədiliyi ilə bağlı sirr deyilmi? Bir daha qeyd edək ki, Kamal Abdullanın dahiyanə tapıntısı eposun mədəniyyəti "təsis etmək, qurmaq" iddiası daşıyan missiyasının bünövrəsinə yazının natamamlıq mahiyyətinin qoyulmasındadır. Ötən ilin dekabrın 20-də Birləşmiş Krallığın Oxu üzrə Dünya Kitab Klubunda "Yarımçıq Əlyazma" romanı müzakirə edilib. Əsəri ingilis dilinə tərcümə edən və müzakirəyə dəvət olunan Anna Tompson romanın müzakirəsi böyük maraqla keçdiyi haqda yazı dərc etmişdir. "Dünya Kitab Klubu Britaniya kitab mağazalarında üstünlük təşkil edən Şimali Amerika və Qərbi Avropa ədəbiyyatlarından kənara çıxaraq, hər ay oxuyub müzakirə etmək üçün fərqli bir kitab seçir. Müzakirələr əsasən mif, reallıq və tarixi yazılar üzərində aparılıb. Müqayisələr arxeoloqlar Troya şəhərinin qalıqlarını tapana qədər mif hesab olunan Troya müharibəsi ilə aparılırdı. Digər bir oxucu isə əlyazmanın, sanki parçalandığını və yaranan boşluqların doldurulmasının oxuculara həvalə edildiyini vurğuladı. Tarix ayrı-ayrı faktlardan ibarətdir və o faktlar tamamilə aşkar olunanda tarixə baxış dəyişir. Oxucular əsərin mövzusunu müzakirə edərkən, özləri üçün bəzi məsələləri də aydınlaşdırmaq istəyirdilər. Hekayənin sonunu nəzərə alaraq, onlar maraqlanırdılar ki, Dədə Qorqud Aruzdan yaxa qurtarmaq üçün kimi qurban verəcək. Müzakirə iştirakçılarına elə gəlirdi ki, xan öz kürəkənini sevmir. Məsələn, bir oxucuya görə Xan Qazanı qurban vermək istəyir. Bəlkə də, Xan Uruzun böyüməsini gözləyib, daha sonra Qazandan bu şəkildə yaxa qurtarmaq istəyir? Oxucular Qorqudun, həqiqətən də müsbət, yaxud mənfi obraz olması ilə maraqlanırdılar, halbuki bu obraza artıq isinişmişdilər. Boğazca Fatma da Xızır kimi onların diqqətini cəlb edən digər məşhur bir fiqur idi".

Müzakirə iştirakçılarında xüsusilə Nur Daşı mübahisə doğurub və onun başqa yerdə olub-olmaması ilə maraqlanıblar. Klubda Şah İsmayıl və Kitabi-Dədə Qorqudla bağlı məlumatları kifayət qədər olmayan oxucular yazıçıdan daha müfəssəl bir giriş istəyiblər. Əsərin əvvəlində oxucu naməlumluqdan konfuza düşsə

də, yarıya çatdıqda o, bundan zövq alır və marağı getdikcə artır. Ümumiyyətlə, kitab klubları tarixində ilk dəfədir ki, Azərbaycan ədəbiyyatından əsər və azərbaycanlı müəllif seçilib. Qeyd edək ki, "Yarımçıq əlyazma" romanının Britaniya Kitab Klubunda müəllifdən xəbərsiz müzakirə edilməsi Azərbaycan ədəbiyyatının təqdir olunmasının əyani sübutu və göstəricisidir. Kamal Abdulla ədəbiyyatşünaslığa, türkologiyaya, mədəniyyətşünaslığa, Qorqudşünaslığa, tənqid və estetikaya, dilçiliyə dair fundamental kitablar yazmış, dərsliklər nəşr etdirmiş və elmi kadrlar yetişdirmişdir. 2017-ci ilin noyabr ayında Azərbaycan Dillər Universitetində qonaq olan amerikalı alim xanım Anna Oldfild Kamal Abdulla ilə görüşünü və bu görüşlə bağlı xoş təəssüratlarını ona ünvanlandığı məktubunda ifadə edərək yazmışdır: "Azərbaycan folklorunu araşdıran bir tədqiqatçı kimi, tanınmış postmodernist yazıçı ilə onun Azərbaycan folkloru və roman arasında əlaqələr barəsində fikirlərini bölüşmək mənim üçün xoş və maraqlı idi. Azərbaycana gələn hər bir qonağa bu ölkəyə məxsus səxavətlə açılan çay süfrəsi kimi, cazibədar ideyaları və düşüncə tərzi ilə, eləcə də, Azərbaycan aşıqlarından tutmuş Umberto Ekoya qədər uzanan müxtəlif mövzulu söhbətlərlə yanaşı, mən öz sualıma cavabı "Yarımçıq əlyazma" romanında - folklor, "Kitabi-Dədə Qorqud" və çağdaş Azərbaycan bədii ədəbiyyatının danılmaz vəhdəti olan bir əsərdə tapdım. Üstəlik, roman özündə çoxsaylı freymlər daxilində əlyazma arxivi, kitabxanaçı, şərqşünas, mətndaxili mətn (freym hekayə) və sirr ehtiva edir". Müəllif məktubunu bu cümlə ilə yekunlayır: "Sonda isə mən Kamal Abdullanı yazıçı və alicənab bir insan kimi dəyərləndirirəm". Kamal Abdulla Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri vəzifəsində çalışdığı illərdə də intensiv fəaliyyət göstərmiş və bir sıra uğurlara imza atmışdır. "Multikulturalizm İli"ndə həyata keçirilən bütün tədbirlər bir daha göstərdi ki, Azərbaycan xalqı, cəmiyyəti bütövlükdə bu multikultural dəyərlərin dünyaya tanıdılmasına hazırdır. Akademikin bir sıra elmi əsərləri, o cümlədən, multikulturalizmə aid yazdığı məqalələri də xarici ölkə mətbuatlarında yer almışdır.  Kamal Abdulla həmişə olduğu kimi bu gün də Azərbaycanın mənəvi-siyasi mövqeyini, ədəbiyyatını və mədəniyyətini ləyaqətlə qorumaq missiyasını inamla davam etdirməkdədir. Azərbaycan Dillər Universitetinin rektoru kimi fəaliyyətində də o, bir sıra uğurlara imza atıb. Tədris müəssisəsində Multikulturalizm, Azərbaycanşünaslıq, Rusiyaşünaslıq laboratoriyaları açılıb. Bu gün də görkəmli Azərbaycan yazıçısının yaradıcılığının dünya ədəbiyyatı kontekstində özünəməxsus yeri var. İstedadlı qələm sahibi Kamal Abdulla bütün Türk dünyasında böyük şöhrət qazanan, Azərbaycan ədəbiyyatını, mədəniyyətini, bütün dünyada şərəfləndirən görkəmli yazıçı, fədakar alim, qeyrətli vətəndaş, xalqını sevən ziyalıdır.

## Yubiley tədbirlərinin keçirilməsi

Kamal Abdulla Azərbaycanın görkəmli alimi, nüfuzlu ictimai xadimi, Filologiya elmləri doktoru, professor, Azərbaycan Respublikasının Xalq yazıçısı, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, Azərbaycan Dillər Universitetinin rektoru, Azərbaycan Mədəniyyət Fondunun sədridir. Eyni zamanda Bakı Slavyan Universitetinin ilk rektoru, Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri kimi çoxşaxəli vəzifələrin və titulların daşıyıcısı kimi tanınır. Ancaq bunların içində titulsuz bir tanıtım kimliyi var. O da Kamal Abdullanın müasir Azərbaycan ədəbiyyatının yeni obrazını dünyaya tanıdan bir yazar olmasıdır. Onun müxtəlif dillərə tərcümə olunan əsərləri müasir Azərbaycan ədəbiyyatının daha dolğun şəkildə tanıtımı üçün böyük əhəmiyyət daşıyır. Hazırda Kamal Abdulla nəsri vasitəsilə dünyanın bir çox ölkəsində Azərbaycan ədəbiyyatının yeni dalğası haqqında geniş oxucu kütləsində təsəvvürlər formalaşır. Qeyd etdiymiz kimi, Xalq yazıçısı Kamal Abdullanın anadan olmasının 75 illik yubileyidir. Yubiley ilə əlaqədar olaraq respublikamızın bütün təhsil ocaqlarında, məktəblərdə, kitabxana, lisey, gimnaziyalarda silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. F.Köçərli adına Respublika Uşaq Kitabxanası olaraq, görkəmli yazıçının yubileyi ilə bağlı kitabxanamızda tədbirlərin keçirilməsinə start vermişik. İlk öncə kitabxananın oxu zalında yazıçının həyat və yaradıcılığı ilə bağlı foto sərgi və kitab sərgisi təşkil olunur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: “Kamal Abdulla-75”, “Ədəbiyyatımıza, elmimizə, ictimai mühitimizə fəxarət gətirən insan”, “Görkəmli alim və tanınmış yazıçı Kamal Abdulla”, “Alim və yazıçı yaradıcılığının zirvəsində - Kamal Abdulla” və s. Sərginin hazırlanmasında məqsədimiz yazıçının yaradıcılığını geniş şəkildə gənc nəslə təbliğ etmək və sevdirməkdən ibarətdir. “Kamal Abdulla-75” adlı sərginin nümunəsini sizlər üçün təqdim edirik.

1.Olacağın olmağına nə var ki,
  Bircə dənə olmayacaq ver mənə...
2. Foto sərgi.
3.Kitabların nümayişi
5.Dövrü mətbuatda çap olunun qəzət və məqalələrin kartotekası
6.Görkəmli insanların Kamal Abdulla haqqında söylədikləri.
7. Şeirlərindən parçalar.
Gəldiyim yolla da qayıdacağam,
Yolun başlanğıcı - yolun sonucu.
Mən qayıtmalıyam, nə qədər sağam,
Mən nə birinciyəm, nə də sonuncu.

## Kitabların nümayişi
















































**Görkəmli şəxsiyyətlərin Kamal Abdulla haqqında söylədikləri**

"Kamal Abdulla yaradıcılığı çoxşaxəlidir. O həm şair, həm də gözəl hekayə ustası, dilçi, türkoloq, folklorşünas, ədəbiyyatşünas, mədəniyyətşünas alimdir. O, istər Azərbaycan ədəbiyyatında, istərsə də Azərbaycanın ictimai-siyasi fikrində mühüm rol oynamış şəxsiyyətlərdəndir: Kamal həm qələm adamıdır, həm də çox görkəmli ictimai-siyasi xadimdir. O, müstəqil Azərbaycan dövlətinin inkişafında böyük xidməti olan insandır. Kamal Abdullanı hər zaman gənclərin yanında olan, onlara doğru yol göstərən xeyirxah insan kimi həmişə yüksək dəyərləndirmişəm".

Sabir Rüstəmxanlı,

Xalq şairi

Kamal hələ cavan çağlarından Azərbaycan folklorunu uca tuturdu və bu ucalıq bu gün də onun yaradıcılıq aurasının içindədir. O, bu folklorun elmi-nəzəri təsnifatı naminə xüsusi bir ehtiras və şövq ilə çalışır və onun bədii yaradıcılığı da ən sıxı tellərlə folklora - bunu bir daha təkrar edirəm - ilk növbədə də "Dədə Qorqud"a bağlıdır. El ədəbiyyatına bağlılıq Kamal Abdullanın fərdi bədii-estetik zövqünün formalaşmasında mühüm rol oynayıb və ən əsası isə, bu gün ədəbi prosesi, bir sıra radio və televiziya kanallarını bürümüş bayağılıq, sənətlə bağlı sosial şəbəkədə tez-tez rastlaşdığımız primitivlik içində oxucuların bədii zövqünün pozulmaması baxımında əhəmiyyətli rol oynayır.

Elçin,
Xalq yazıçısı

“Gənclərlə, tələbələrlə işləmək, onların qayğısına qalmaq, gənclərin qolundan tutub onları irəli çəkmək, onlara güvənmək Kamal müəllimin əsas müsbət keyfiyyətlərindəndir. Gənclər Kamal müəllimi sevir, qiymətləndirirlər. Yeni söz demək, yeni nəfəs ortaya qoymaq Kamal müəllimin çoxşaxəli yaradıcılığının mühüm elementlərindəndir. Kamal Abdulla həmişə yeniliyə doğru addımlayır. Həm bədii, həm də elmi yaradıcılıqda biz bunun şahidi oluruq. Yazıçının, şairin, alimin əsas göstəricilərindən biri öz mühitini yaratmaqdır. Kamal müəllimin bu gün də gördüyü işlər lazım olan mühiti yaratmaqdan, sağlam gənclər yetişdirməkdən ibarətdir.

Muxtar İmanov,
Akademik

“Kamal Abdulla mənim əziz dostumdur. Kamal Abdullanın yaradıcılığında mən Dədə Qoquda ata-oğul münasibəti görmüşəm. Dədə Qorqudun dünya ədəbiyyatına çıxmağında, dünya ədəbiyyatında tanınmağında heç şübhəsiz Kamalın böyük əziyyəti, xidmətləri, övladlıq borcu var. Şair öz hissiyyatını yazır, şeir ürəyin kardioqrammasıdır. Kamalın bütün əsərləri özüdür, mətnləri onun ömüründən keçir. Kamal elmlə ədəbiyyatın, elitarla kütləvinin, şeirlə nəsrin qovuşma nöqtəsidir”.

Ramiz Rövşən,
Xalq şairi

“Kamal Abdulla dövlətçilik baxımından, ictimai-siyasi fəaliyyət baxımından mühüm işlər görmüş şəxsiyyətdir. Təsadüfü deyil ki, Kamal dövlət müşaviri səviyyəsinə qədər yüksələ bilib. Kamal nə ilə məşğul olubsa, həmin fəaliyyətin ən yüksək zirvəsinə çatıb. Mən hesab edirəm ki, bu hər adama nəsib olmur. Bu cür genişşaxəli fəaliyyət göstərən ikinci adamı tanımıram. Kamal Abdulla müxtəlif zəngin ideyalarla dolu adamdır və bu ideyaları həyata keçirmək üçün hər zaman durmadan çalışır.

Çingiz Hüseynzadə,
Akademik

“Kamal müəllim də nadir insandır. Nadir nəfəs sahibidir. Bizim ədəbiyyatımızın ən yüksək zirvəsi “Kitabi-Dədə Qorqud”dur. Tərəzinin bir gözünə Dədə Qorqudu, bir gözünə başqa yazılı abidələri qoysaq, Dədə Qorqud ağır gələr. Kamal Abdullanın həyatında Dədə Qorqud qırmızı xətlə keçir.

Möhsün Nağısoylu,
Akademik

“Kamal müəllim bizim ədəbiyyatımıza, elmimizə, ictimai mühitimizə fəxarət gətirən insandır. Vətən müharibəsində də biz bunun bir daha şahidi olduq. Yazdığı mətnlər, ortaya qoyduğu mövqe bizi qürurlandırdı. Ümumiyyətlə, heç bir yaxşı hadisə Kamal müəllimin diqqətindən kənarda qalmır”.

Rəşad Məcid,
Yazıçı

“Kamal Abdulla fərqli zamanın yazıçısıdır. Həmin zamanı təbii ki, hər kəs eyni miqyasda dəyərləndirə və duya bilməzdi. Kamal Abdulla mifoloji keçmişdən başlayaraq Berqsonun ideya olaraq irəli sürdüyü vahid zamanın içində öz zamansızlığını yaratdı. Bu gün Kamal Abdullanın yaradıcılığını dünya üçün maraqlı edən səbəb budur”.

Azər Turan,
Tənqidçi, publisist

“Mən Kamal Abdullanı 80-ci illər əsərlərindən tanıyıram. O vaxt da gənclər arasında indiki qədər sevilirdi, oxunurdu. Kamal Abdulla çox dəyərli Azərbaycan alimi və yazıçısıdır. Kamal müəllim “Dədə Qorqud” mövzusu ilə bağlı çoxlu əsərlər yazıb, çoxlu anlayışlar gətirib. Onların çoxu vaxtilə müzakirə olunub və indiyə qədər də müzakirəsi bitmir. Kamal müəllimin seçilmiş əsərləri çap olunur. Onların siyahısına, əsərlərinə baxanda görürük ki, heç biri bir-birini təkrar etmir, hər biri orijinaldır, yenidir”.

Nizami Cəfərov,
Akademik

“Kamal Abdulla Azərbaycan ədəbiyyatının və elmi fikrinin sərhədlərindən kənara çıxan, dünyada qəbul olunan insandır. Kamal Abdullanın Umberto Eko ilə görüşü mən hesab etmirəm ki, sadəcə, onun özünü maraqlandıran bir hadisədir. Düşünürəm ki, bu hadisə Azərbaycan ədəbiyyatının Umberto Eko zirvəsinə doğru inkişafına töhfədir. Kamal Abdulla müstəqillik dövrü Azərbaycan ədəbiyyatının yeni istiqamətlərdə inkişafına xüsusi töhfələr vermiş böyük ziyalılarımızdan biridir. Kamal müəllim müstəqillik dövründə akademik titullu ilk Xalq yazıçısıdır. Sovetlər dövründə bu model var idi. Səməd Vurğun Xalq şairi və akademik, Mirzə İbrahimov xalq yazıçısı və akademik idi. Müstəqillik dövründə isə yeganə yazıçı Kamal Abdulladır ki, bu iki yüksək rütbəni daşıyır. Bu iki tərəf onun ədəbiyyatda, elmdə və dünyaya çıxışında yerini müəyyənləşdirir. Kamal müəllim ədəbiyyatın Xalq yazıçısı, elmin akademikidir. O, hər ikisinin ən yüksək zirvəsini fəth edə bilib”.

İsa Həbibəyli,
Professor

Azərbaycan dilçiliyinin öndə gələn simalarından biri olan akademik Kamal Abdullanın həm elmi, həm də ədəbi irsi “Dədə Qorqud” eposunun mətni üzərindən başladığına görədir ki, ədəbiyyatda da hadisə yarada bilmişdir. Özünü janr məhdudiyyətinin içində hiss etmədən fərqli baxışını ortaya qoymaqla müstəqillik dövrümüzün ədəbiyyatına ötən yüzilin 70-ci illər ədəbi mühitinin təmsilçisi kimi uğurla transformasiya olunan az saylı ədəbiyyat adamından biridir.

Fazil Mustafa,
Azərbaycan Respublikası Milli Məclisinin üzvü,
fəlsəfə üzrə fəlsəfə doktoru

Kamal Abdullanın Azərbaycan xalqı, dövləti qarşısında xidmətləri böyükdür. Bir türkoloq alim kimi Kamal Abdullanın Azərbaycan filologiyasının, xüsusilə də qorqudşünaslığın, sintaksisin nəzəri problemlərinin, mətn dilçiliyinin hərtərəfli öyrənilməsi və inkişafında mühüm xidmətləri var. Kamal Abdulla, həmçinin Azərbaycan dilinin, mədəniyyətinin və multikulturalizminin Avropa, Amerika, Yaxın və Uzaq Şərq universitetlərində təbliği ilə bağlı geniş fəaliyyət göstərib, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında real işlər görüb.

Kərim Tahirov,
Professor

**Kamal Abdullanın fikirləri**

Ədəbiyyat bəlkə də insan təbiəti ilə insan vicdanının əbədi mübarizəsidir.

Şair dünyanı olduğu kimi görmür. Görsəydi o, sənətkar olmazdı.

Ədəbiyyat... əslində xalqa yaxın olmamalıdır.
Ədəbiyyat heç olmasa, bir az irəlidə getməlidir.
Kimisə arxasınca aparmağı bacarmalıdır.

Hüseyn Cavid Azərbaycan ədəbiyyatının söz və fikir zadəganı idi.
Daxili ləyaqəti sənət idealına son dərəcə uyğunlaşmışdı.
Bəlkə də bu sənət idealı onun daxili ləyaqətini illər, on illər boyu formalaşdırmışdı.
Əgər biz İblisə yalnız İblis kimi yox, həm də alçaldılmış və cənnətdən qovulmuş bir mələk kimi də baxa bilsəydik...

Hər bir adam həyatının sonunadək öz içində kimisə gizləyib saxlayır.

Sizə elə gəlmirmi ki, məğrur adama məğrur olmaq imkanı verilməlidir və məğrur olmaq üçün şərait yaradılmalıdır. Yoxsa ət maşınından keçən zaman əzərlər onu.

Reallığı axtarırıqsa, həqiqəti dərk etməyə çalışırıqsa, o indi, lap indicə yaşadığımız, həqiqətən duya bildiyimiz dolğun anın içindədir. Öz dünəni ilə, öz sabahı ilə bir yerdə.

Dahilərin tarixi əslində eksperimentlərin tarixidir.

Obrazlardan ideyaya yox, ideyadan obrazlara – əsl ədəbiyyatın yolu budur.

Əsl poeziya yəqin həm də o poeziyadır ki, onun misralarını nəsrə çevirib cümlələrlə vermək mümkün olmasın.

Mənim üçün bir Yol var – böyük hərflə yazılan, əvvəl-axır istəsən də, istəməsən də keçilən bir böyük Yol!

Ən ağır gələn odur ki, biz özümüz özümüzə bir sıra yalançı miflər düzəltmişik, biz özümüz özümüzü o yalançı miflərlə aldatmışıq və bunları biləbilə aldatmaqda davam edirik.

Hər bir yazıçının ilk növbədə öz eksperiment səlahiyyəti olmalıdır. Bədii əsər ilk yazılma məramında öz həyat yolunu dəqiq müəyyənləşdirməlidir. Əsər ya hamı üçün yazılır, – bunu, adətən, xalq üçün yazılıb deyirlər – ya da ki, əsər öz xaridari üçün yazılır... Sənətkarın eksperimentinə xalq yox, sənətkarlar qiymət verməli...

Beynimizdə bizdən xəbərsiz əksliklərin şiddətli mübarizəsi gedir, üzdə görünmür, sanki mübarizədən əsər-əlamət yoxdur, dərində isə var- 50 lığımızın bir hissəsi, bir qütbü o birisi ilə ölüm-dirim savaşındadır.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Kamal Abdullanın yaradıcılığı və yubileyi münasibətilə keçirilən tədbirlərdən biri də kitab icmalıdır. Tədbir F.Köçərli adına Respublika Uşaq Kitabxanasının oxu zalında ədəbiyyatşünaslar, şair və yazıçılar, tələbə və şagirlər arasında keçirilir. Tədbiri təşkil edən kitabxanaçı Tanınmış tənqidçi, ədəbiyyatşünas alim Mehman Qaraxanoğlunun Xalq yazıçısı, akademik Kamal Abdullanın yaradıcılığına həsr etdiyi "Kamal Abdulla: yaradıcılıq stixiyası" adlı kitabının icmalı ilə başlayır. Müəllifin müxtəlif zamanlarda qələmə aldığı ədəbi-tənqidi məqalə və esselərini bir araya gətirən kitabda Xalq yazıçısı Kamal Abdullanın fundamental elmi və bədii yaradıcılığı ədəbi düşüncənin müasir elmi-nəzəri problemləri müstəvisində analitik tədqiqə cəlb olunur. Mehman Qaraxanoğlu müxtəlif hermenevtik üsul və hissi-analitik yanaşmalarla özünəməxsus fərqli təhlillər apararaq Kamal Abdullanın əsərlərindəki mürəkkəb məna qatlarını, dərin estetik dəyərləri diqqət mərkəzinə çəkərək, yazıçının yaradıcılığını geniş və hərtərəfli şəkildə təhlil edir. Kitabda, həmçinin, Xalq yazıçının milli söz sənətinə gətirdiyi yeniliklər, onların dünya ədəbiyyatı ilə əlaqələri tədqiq edilir. "Füyuzat" nəşriyyatında işıq üzü görən "Kamal Abdulla: yaradıcılıq stixiyası" kitabının elmi redaktoru akademik Muxtar İmanov, redaktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Maral Yaqubovadır. Nəşrin rəyçiləri isə filologiya üzrə fəlsəfə doktorları Ağahüseyn Şükürov və Adil Həsənoğludur.

Kitabda toplanan məqalələr müxtəlif zamanlarda qələmə alınsa da, bu mətnlər ayrı-ayrı fəsillərdə ("Müxtəlifliyin harmoniyası", "Kamal Abdulla hekayələrinin meditasiyası: özünü oxu, özünü şərh et!", "Görükməz təpə"lər: romanlar") bir-biri ilə elə məharətlə birləşdirilir ki, bitkin məzmun alınır.

Beləliklə, kitab oxucunu bütövlükdə Kamal Abdulla yaradıcılığının dərkinə aparan yeni cığırlar salır. Bu yollar yazıçının mətnlərinin dərin məna qatlarına, fəlsəfi mahiyyətinə işıq saçdıqca, bu əsərlərin təkcə milli söz sənətinə deyil, bütövlükdə dünya elmi və mədəniyyətinə verdiyi töhfələr də xüsusi vurğulanır. Ədibin yaradıcılığına dərin fəlsəfi yanaşma, analitik təhlil, öz növbəsində, Kamal Abdullanın mətnlərinə fərqli rakursdan baxmaq fürsəti verir, yazıçının ədəbi dünyasını dərindən dərk etməyə yardım edir. Beləliklə, Mehman Qaraxanoğlunun təqdim etdiyi yeni nəşr Kamal Abdulla əsərlərinin qavranılmasında yeni perspektivlər açır, bu bənzərsiz yaradıcılığın dərinliklərinə baş vurmaq istəyən hər bir oxucu üçün dəyərli ədəbi-nəzəri mənbəyə çevrilir.

İnanırıq ki, tanınmış tənqidçi Mehman Qaraxanoğlunun Xalq yazıçısı, akademik Kamal Abdullanın yaradıcılığına həsr etdiyi "Kamal Abdulla: yaradıcılıq stixiyası"

kitabı müasir oxucular tərəfindən böyük rəğbətlə qarşılanacaq, dəyərli intellektual irs kimi milli söz sənəti tarixində özünəməxsus yer tutacaq.
Təşkil olunmuş tədbirlər siyahısına "Oxu saatı"nın salınması da məqsədəuyğundur. Beləki, əziz oxucu, bu gün sizinlə birlikdə yazıçı Kamal Abdullanın qələmə aldığı hekayə ilə sizləri tanış edəcəyik. Kitabxanaçı: Bir dəfə Zərdüşt yol ilə gedirdi. Qarşısına bir uzun saqqal kişi çıxır. Bu kişi uzaq bir kənddən gəlirmiş. O kəndin belə bir adəti var idi. Yol ilə gedərkən rast gəldikləri adama, əgər o adam tanış adam olmazsa, hörmət və ehtiram bildirmək üçün qarşısında diz çökər, torpaq öpər, alınlarını yerə sürtər, ta ki, o adam özü irəli gəlib yerə çökmüş bu kəndlini çiyinlərindən yapışıb ayaq üstə durquzmayanacan bu halətdə qalmaqlarına davam edərdilər. Bu dəfə də belə olur. Qarşısında yerə sərilmiş bu adamı diqqətlə süzdükdən sonra Zərdüşt ona belə bir sual verir:
– Sənin tanımaza-bilməzə mənə göstərdiyin bu ehtiram məni riqqətə gətirdi. Ölüm Allahın kimdir, sən onu tanıyırsan?
– Tanımaz olurmuyam?! Ölüm Allahımla mən hər ötən ildə bir dəfə görüşürəm. O gün mənim bütün yaşadığım illərin eyni günüdür.
Zərdüşt kəndlinin bu cavabını bəyənir və yenə soruşur:
– Bəs Həyat Allahını necə, onu da tanıyırsan?
– Yox, onu tanımıram, – kəndli səmimiyyətlə etiraf edir. – Ona görə tanımıram ki, doğum günüm mənim yadımda deyil. Zərdüşt görür ki, kəndli onun suallarına ağıllı cavablar verir, söhbəti davam etmək qərarına gəlir, ona sərildiyi yerdən ayağa durmağa kömək edir, hər ikisi yoldan çıxır və boz daşlar arasında bir balaca otluqda otururlar. Ətrafa həzin bir axşam düşürmüş. Günün yorğunluğu yavaş-yavaş ətrafda nə vardısa hər şeyin canından çıxırmış. Yolboyu bitən ağaclar, kollar, koslar, yol kənarındakı daşlar, kəsəklər süst bir halda imişlər, hər biri dərindən nəfəs alıb verirmiş, elə bil, dincəlirmiş.
Cır-cıramalar səslərini başlarına atmışdılar, hərdən bir qəfildən susurdular, onlar susan kimi yaxından-uzaqdan cır quş səsləri idi, girirdi bu sükutun içinə, bəzən isə çox-çox uzaqlardan, başı ağaran dağlar tərəfdən qartal qıyı yuxarıdan aşağı yorğun-yorğun elə o dağlardan enən bu yolun düz ortasına qədər gəlib çatırdı.
– Sən dedin ki, ölüm Allahınla ildə bir dəfə eyni gündə görüşürsünüz. Sən o günü necə tanıyırsan? – Zərdüşt kəndlidən soruşur.
– Mən o günü indi tanımıram, mən o günü ölən zaman tanıyacağam. – Kəndli Zərdüştə bu dəfə də belə cavab verir.
– O zaman sən ölüm Allahının üzünü belə görməmisən?!
– Yox, görməmişəm. Mənə ondan danış.
Zərdüşt baxıb görür ki, kəndli həqiqi bir maraqla onun söhbətini gözləyir, yol gəlməkdən yorulmuş ayaqlarını ovuşdura-ovuşdura ona belə cavab verir:

– Bu söhbət indinin söhbəti deyil. Bizdən çox-çox qədim zamanların söhbətidir. O zamanlar allahlar yer üzünə tez-tez gəlib gedərdilər. Bizim babalarımızla onların sıx ünsiyyətləri olardı. İndi daha belə deyil. İndi allahlar bir-biri ilə cəng edirlər. Həyat allahının və ölüm allahının bir-birini görməyə gözləri yoxdur. Amma vaxt var idi, dost idilər…

– Bir neçə il bundan əvvəl bizim kəndə qərib birisi gəlmiş idi. O da belə deyirdi.

– O qəribin adı nə idi? – Zərdüşt maraq edərək soruşdu.

– Əsl adını heç kim bilmədi. Hamı onu Ərmən çağırırdı.

Zərdüşt bunu eşidib fikrə getdi.

…Ərmən hələ uzaqdan bu kəndi görüb seçmişdi. Dörd tərəfi böyüklü-kiçikli quru dağlar, elə bil, döyüşə hazır əsgərlər idi. Bir böyründən suyu çoxdan sovulmuş çayın enli beşiyi qalmışdı; bəlkə də nə vaxtsa suyu yenə gələcəkdi, sağ böyründən isə tikanlı bir çöl başlayırdı. Kənd evlərinin çəpəri başdan-başa bu çölün tikəni idi. İndi Ərmən tikanlı çöl ilə addım-addım bu kəndə yaxınlaşdıqca seçiminin doğru olduğuna bir daha inandı. Kəndin adamları qəribə adamlar idilər. Qarşısına çıxan hər bir kəndli onun önündə dərhal diz çöküb alnını torpağa sürtürdü. "İtaətkar camaatdır, -Ərmən belə düşündü. – Bu adamları həqiqətlə sirdaş eləmək çətin olmayacaq".

Onu qarşılayan kəndlilərlə bir yerdə kəndin ortasındakı qollu-budaqlı ağacın altına yetişəndə artıq kəndin kişili-qadınlı ayağı yer tutan kimi vardısa, hamısı burada cəm olmuşdu. Adamlar onu araya aldılar, başladılar böyük maraq və ehtiramla onu dörd tərəfdən seyr etməyə, bəziləri də qaçışaraq tamaşaya gəlmiş tumançaq balaca uşaqlara böyük bir sevinc içində nə isə qışqıra-qışqıra əllərilə onu göstərirdilər. Nəhayət, camaatın içindən qırmızısaqqal, uzun və ağappaq libasa bürünmüş bir ortaboylusu çıxıb irəli gəldi, Ərmənin qarşısında durdu. Bu, kəndin cadugəri idi. Ərmənlə cadugər bir müddət bir-birinə baxa-baxa qaldılar. Sonra Ərmən sağ qolunu çırmayıb cadugərə nəsə göstərdi. Cadugər diqqət və ehtiramla Ərmənin qoluna baxdı. Bu zaman camaat da sakit oldu, hər tərəfi sükut bürüdü. Bu sükutun içində qırmızısaqqal cadugər hər iki əlini açaraq Ərmənə sarıuzatdı və uca səslə onu salamladı:

– Xoş gəlmisən, Ərmən!

Kənd adamlarının ürəyindən qopan şadyanalıq və sevinc sədaları ağacın altından sıyrılaraq asimana qədər baş alıb getdi…

Zərdüşt fikirdən ayrılaraq yanında bardaş qurub mərifətlə oturmuş bu kəndlidən soruşur:

– O Ərmən dediyin ölüm Allahının özü idi, deyilmi?

– Bəli, - kəndli cavab verdi. – Ərmən ölüm Allahının özü idi ki, vardı. Amma biz bunu sonradan bildik.

Zərdüşt yenə fikrə gedir. Düşünür: "Deməli, yenə gedib-gəlirlər… Unutmayıblar. Əgər bu kəndlinin dedikləri doğrudursa, bu gəlişin çox böyük mənası olmalıdır"...
Bu minvalla Ərmən o kənddə bir müddət qalıb yaşayır. Kəndin kürəyini verib daldalandığı balaca dağın döşündəki bir mağaraya sığınır, hərdən də cadugərin yaşadığı komada qalır. Kəndin camaatı Ərməni tanıyandan sonra qorxu-hürkünü birdəfəlik unudur. Hər şeyin, hətta ölümün belə gözünə dik baxmağa başlayır. Yavaş-yavaş Ərmənin sorağı yaxın və uzaq ətrafa yayılır. Ərmən bu kəndə yerləşəndən sonra onunla təmas edən adamlar ona böyük ehtiram göstərirlər. Hətta cadugərin özü belə onun qarşısında əmrə müntəzir dayanır. Bir gün bu cadugərin yanına göz işlədikcə uzanıb gedən sıralı dağların o tərəfindəki uzaq kənddən bir adam gəlir.
– Mən sənin sorağınla kənd-kənd, oba-oba gəzirəm, – bu gəlmə adam cadugərə deyir: – Mənim dərdimin çarəsini ancaq sən çözə bilərsən.
– Sən kimsən və nə dərdin sahibisən? - Cadugər Gəlmədən soruşur. Gəlmə cadugərə belə cavab verir:
– Mən öz oğlumu axtarıram. O, günlərin bir günü yoxa çıxdı. Nə qədər axtardıq, onu tapa bilmədik. Bu yaxınlarda isə eşitdim ki, sizin kənddə bir yeni adam peyda olubdur. Mən onu görmək istəyirəm. Bəlkə…
Cadugər çönüb otağın dibində, Gəlmənin gözündən qıraq birküncdə bardaş qurub əyləşmiş Ərmənə baxır, Ərmən başını yerə dikir. Bir müddət heç biri dinmir.
– Sən məndən nə etməyimi istəyirsən? - Nəhayət, Cadugər dərd əlindən özünə yer tapmayan, üzündən-gözündən, üstündən-başından acı bir yorğunluq tökülən Gəlmədən soruşur.
Gəlmə ah çəkib belə cavab verir:
– Sənin möcüzələrinin tərifi dağları aşıb biz tərəflərə çoxdan yetişibdir. Mənə kömək etsən sən edəcəksən. Oğlumun yerini lütf eylə, mənə söylə.
Bunlar üzbəüz dayanıb söhbət etdiklərindən yana Gəlmə Ərmənin üzünü hələ görmür. Söhbətin bu yerində Ərmən otağın dibindən, oturduğu yerdən qalxıb irəli, üzü işığa çıxır və Gəlmə bu zaman Ərməni görür. Görməyilə də yerindəcə qupquru quruyub qalır, dili ağzındaca topuq çalır. Nəhayət, birtəhər edib özünə gəlir və iztirablı səslə Ərmənə belə deyir:
– Oğul, bəs sən nə üçün belə etdin? Yoxsa məndən bir yamanlıqmı gördün? Niyə ilim-ilim itdin, hara yox oldun, gecəmin-gündüzümün yiyəsi?Ətrafdakılar hamı maraq göstərib bunların ətrafına yığışır. Hətta Cadugər özü belə Gəlmənin bu cür söhbətinə mat-məəttəl qalır. Ərmən əvvəl-əvvəl çaşqın kimi görünür, amma tez özünü ələ ala bilir. Ərmən Gəlməyə belə deyir:
– Sən kimsən və məndən nə istəyirsən?..

Zərdüşt kişinin söhbətinə maraq ilə qulaq asır. Bu yerə çatanda artıq ona məsələnin canı tamamən aydın olur. Dodağının ucu ilə gülümsünüb kişinin dediklərini artıq özü davam edir:
– Gəlmə onu öz doğma oğlu bilir. Əslində, sizin Ərmən dediyiniz şəxs o gəlmə kişinin oğlunun qiyafəsində imiş. Bədbəxt adam Ərməni görcək oğlunu tapdığını zənn edir.
– Sən bunları haradan bilirsən?–Zərdüştün həmsöhbətinin təəccübdən gözləri böyüyür. Zərdüşt ona məhəl qoymadan davam edir: –Sonra Ərmən Gəlməyə belə deyir:
– Mən sənin oğlun deyiləm.
– Bəs sən kimsən, a bala? – Gəlmə sidq-ürəklə təəccüb edir. – Mən öz doğma oğlumu tanımaz olurmuyam? Bu nə cür danışıqdır sən danışırsan?
Bunları deyə-deyə Gəlmə üzündə acizanə yalvarış ətrafındakı adamlara baxıb yaşlı gözlərilə onlardan imdad istəyir. Amma ətrafda heç kim cəsarət edib bir kəlmə danışa bilmir. Hətta Cadugər belə çaşqınlıq içərisində susub qalır.
– Mənim kim olduğum sənə, bax, bundan bəllidir. - Ərmən ağ köynəyinin sağ qolunu çırmayır və bu zaman dirsəyindən yuxarıda qoluna basılmış işarəti Gəlməyə göstərir. Bu tanış işarəti görən kimi Cadugər bu dəfə üzüqoylu olub Ərmənin qarşısında yerə sərilir və tərpənməz qalır. Yenə bir müddətdən sonra Ərmən Cadugərin beyninə "Qalx ayağa!" əmrini göndərir, bundan sonra Cadugər yavaş-yavaş, əlini yerə dayaq verib qalxır ayağa, amma yenə bir müddət maddım-maddım baxaraq Ərməndən gözünü çəkə bilmir.
– Bəs sən bunları haradan bilmisən? Sən ki orada yox idin?! – Zərdüştün həmsöhbəti yenə də ondan böyük bir maraq içində soruşur.
– Sənə mən bu barədə heç bir şey deməyəcəyəm. – Zərdüşt yavaş səslə, amma qətiyyətlə cavab verir. –Davam edim, yoxsa… Ərmən görür ki, ətrafdakı adamlar Cadugərin onun qarşısında bu cür diz çökdüyünü görəndən sonra ona qorxu içində baxmağa başladılar. Bu zaman Ərmən başa düşür ki, bu kənddə o artıq qala bilməyəcək…
Zərdüşt nəfəsini dərir. Düşüncələri yenə onu uzaqlara aparır. Son dəfə Ərməni gördüyü günü xatırlayır. Payız idi. Zərdüşt yorulmuş bir halətdə böyük bir qarağacın altında əyləşib çiynini ağacın gövdəsinə söykəmişdi. Bu qarağac yaşıllığı isti yaydan qalmış canlı budaqlarını çətir edib Zərdüştün üstünə tutaraq onu leysan kimi yağan yağışdan qorumaq istəyirdi. Gözlərini yumub ləzzətlə dincini alan Zərdüşt birdən gözünü açıb yanında peyda olmuş ağsaçlı, bığı-saqqalı ağappaq, amma xeyli cavan çöhrəli biradam görür. Bir xeylaq Zərdüşt diqqətlə bu adama, bu adam da Zərdüştə baxa-baxa qalırlar.

– Sən ömrün boyu məni axtara-axtara qalmısan, bilirsən?! – Nəhayət, cavan çöhrəli, ağ saqqallı bu adam Zərdüştdən gözünü çəkib Qarağacın yarpaqlarından ağır-ağır süzülən qara və ikicanlı yağış damlalarına ötəri nəzər yetirib dillənir.
Zərdüşt bir daha bu adamı diqqətlə süzür. Onun səsindəki qəribə bir ahəng Zərdüştü xeyli həyəcana gətirir. Boğazına nədənsə qəhər dolur. Hətta az qalır gözündən yaş da gəlsin. Bu zaman leysan kimi yağan yağış birdən kəsir. Yağış kəsən kimi Zərdüşt yanında oturan cavan çöhrəli bu adamın kim olduğunu anlayır. O adam Zərdüştə bir daha bunları deyir:
– Həmişə məni axtarmısan, amma onu tapmısan. Sən adamlarda mənə qarşı kin, nifrət yaratmısan. Mən … Sənə bu barədə danışmaq belə istəmirəm… Mən, əslində, səni cəzaya düçar etməliyəm, amma niyə bunu etmirəm, özüm də bilmirəm. Hanı, hardadır sənin havadarın, xeyirxahın? Bax, mən burdayam. Mən səni, nəhayət ki, bu Qarağacın altına salıb təkliyinin canını ovcumun içində sıxdım. Bəs o haradadır və o niyə səni təkliyinin içinə buraxdı? Mən axı səni çoxdan, lap çoxdan ovlayıram, bunu o da bilir. Hanı o, Zərdüşt, sən mənə deyə bilərmisən, hanı o?.. Sən ki onu bu qədərinə sevirsən… Amma hanı o?..
Zərdüşt bir cavab tapa bilmir ki, Ərmənə verə. Özündən ixtiyarsız gözləri yaşla dolur və Zərdüşt başlayır ağlamağa. Səssiz-səmirsiz bir xeyli gözlərindən yaş axır üzünə, üzündən də saqqalına töküldükcə tökülür. Əlinin dalı ilə gözlərini bərk-bərk siləndən sonra bir də baxır görür ki, Ərmən artıq yanında yoxdur. Qarağacın altında Zərdüşt beləcənə bir xeyli vaxt tək-tənha oturub dərin fikirlər aləmindən ayrıla bilmir…
– O bir daha gəlməyəcək… – Zərdüşt üzünü çöndərib son dərəcə böyük maraqla ona qulaq kəsilən kəndliyə birdən xüsusi bir diqqət ilə baxır. – Səndən bir şey soruşmaq istəyirəm.
Sonra da kəndlidən cavab gözləmədən sualını verir: – Oğlunu itirmiş o kişi oğlunu tapdımı?
– Bəli. Ərmən yoxa çıxan kimi əziz oğlum o dəqiqə yanımdaca peyda oldu.
– Deməli, o kişi sən idin… – Zərdüşt bu dəfə sual vermir, elə bil xəyal içində öz dediyini təsdiq eləyir.
– Mən idim… – Kəndli cavab verir.
Daha bunlardan heç biri o birisinin sükutunu pozmur. Arabir uzaq, boz və quru dağlar tərəfdən heysiz, zor-güc bura gəlib çatan qartal qıyına, hərdən də onlara qarışan cırcırama səslərinə qulaq verə-verə hər ikisi bir xeyli zaman kirimişcə yol kənarında üz-üzə, diz-dizə oturmaqlarına davam edirlər.

Bu gün Azərbaycanın və dünya elmi-ədəbi ictimaiyyətinin görkəmli nümayəndəsi, Xalq yazıçısı, akademik Kamal Abdullanın zəngin elmi və ədəbi irsi, ölkəmizin intellektual inkişafına verdiyi misilsiz töhfələri onu müasir ictimai fikrin öncül simalarından birinə çevirib.

Milli Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, Azərbaycan Dillər Universitetinin rektoru, filologiya elmləri doktoru, professor Kamal Abdulla çağdaş Azərbaycan elminin və ədəbiyyatının inkişafında müstəsna xidmətlər göstərmişdir. Son 40 ildə ölkənin elmi, ədəbi-mədəni və ictimai həyatında onun təşəbbüsləri və təşkilatçılığı ilə həyata keçirilən mühüm tədbirlər xüsusi yer tutur.
Kamal Abdulla Azərbaycanın dünya miqyasında tanınması və inteqrasiyası üçün də yorulmadan çalışmışdır. Onun təşəbbüsü ilə qurulan beynəlxalq əlaqələr, elmi simpoziumlar və mədəni layihələr ölkəmizin elm və mədəniyyət sahələrində mövqeyini möhkəmləndirmişdir.
Kamal Abdulla yaradıcılığının oxucular arasında geniş təbliği üçün keçirilən tədbirlərdən biri də şeir müsabiqəsidir. Bildiyiniz kimi, şeir müsabiqəsi oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Belə ki, bu tədbirin keçirilməsində əsas məqsəd oxucular arasında yaxşı şeir demək bacarığı olan uşaqları üzə çıxarmaq, onlarda şeirə maraq və şeiri intonasiya ilə demək bacarığını yüksəltməkdir. Tədbiri təşkil edən kitabxanaçı ədəbiyyat müəllimlərini, məktəb, lisey, gimnaziya tələbələrini, tədbirə dəvət edir. Kitabxanaçı tədbiri açıq elan edir. Bu gün biz Xalq yazıçısı Kamal Abdullanın müxtəlif xarici dillərə tərcümə olunmuş “Sən çətin tapasan axtardığını” adlı şeirlər kitabına müraciət etmişik. Kitabda Kamal Abdullanın müxtəlif illərdə yazdığı şeirlərin alman, fransız, ingilis və ispan dillərinə tərcümələri təqdim olunub. Kitab “Elm və təhsil” nəşriyyatında çap olunub. Kitabın "Tərtibçilərdən" hissəsində yazılıb: “Kamal Abdulla Azərbaycan dilçiliyində, ədəbiyyatşünaslığında, nəsrində, dramaturgiyasında unudulmaz xidmətləri ilə seçilən ustad alim, yazıçı, dramaturqdur. Onun poeziya sahəsində qələm təcrübəsi - şeir və nəğmələri də oxucu ürəyini riqqətə gətirir. Dünya xalqlarının ayrı-ayrı dillərinə tərcümə olunmuş bu şeirlər onun həm də gözəl şair olduğundan xəbər verir".
İndi isə oxucular Kamal Abdullanın “İz ləpirdən əvvəl qabaqda neynir?!” adlı şeirini söyləyirlər.

Hamı bir-birinə oxşayır necə,
Sözlər də, üzlər də eynən həməndir.
Necə də səhərə oxşayır gecə,
Necə də göy üzü həmən həməndir

Ləpirlər yol boyu eyni ölçüdə,
Qəbirlər qazılır yenə torpağa.
Yenə güc qalmayıb bircə əlçim də,
Yenə ümid qaçıb gedib uzağa.

Yenə o göy üzü, yenə o səma,
Səmaya dikilən baxışlar eyni.

Yenə gəldi izim çıxdı qarşıma,
İz ləpirdən əvvəl qabaqda neynir?!

Hamı bir-birinə oxşayır necə,
Arzular eyni, diləklər eyni…
Hər şey təzədən başlayır necə,
Ruhlar eyni, ürəklər eyni…

Necə göy üzü qabar-qabardır,
Min il, milyon ildi həməndir həmən.
Göy üzündə yenə həmən quşlardır,
Həmənki yağışdır yerə tökülən.

İz ləpirdən əvvəl qabaqda neynir?!
Kimə lazım idi əyri rəsmimiz?!
Yenə qoca Allah göydə deyinir,
Yenə sözəbaxmaz uşaqlarıq biz.

Keçirilən tədbirlər siyahısında oxucu konfransının təşkil olunması da məqsədəuyğundur. Yuxarıda Xalq yazıçısı Kamal Abdullanın müəllifi olduğu bir çox kitabların müzakirə və icmalını keçirdik. Yaradıcılığında aforizmlər və seçilmiş fikirlərə böyük yer və önəm verən Kamal Abdullanın kitabları içərisində "Seçmələrin seçməsi – Qranulalar" kitabıda böyük əks-səda doğurmuşdur. Kitab ilk dəfə Almaniyada alman dilində çap olunub. "Epubli-Pem" nəşriyyatında nəşr edilmiş əsəri alman dilinə H. Hermann Kiel tərcümə edib. Redaktoru Orxan Arasdır. Kitabda müəllifin uzun illər ərzində yazdığı şeir, esse, pyes, hekayə, roman, publisistika və elmi məqalələrdən seçilmiş, "qranula" – yəni mətnin cövhəri hesab olunan fikirlər ilk dəfə ayrıca şəkildə təqdim olunur. Müəllif kitabın "Ön söz"ü kimi "Məni sevən oxucuma son hədiyyəm" başlığı altında aşağıdakı fikirləri oxucularına belə ünvanlayır:

"İllərdən bəri yazdığım müxtəlif şeirlərin, esselərin, pyeslərin, hekayə və romanların, publisistik məqalələrin və elmi əsərlərin, verdiyim intervülərin hər birinin içində yer almış və bu gün də öz məzmunu, tutumu, forması ilə diqqətimi çəkən misralar, cümlələr günlərin bir günü sanki dil açıb mənə dedilər ki, bizim bir-birimizdən zaman və məkanca ayrılığımıza son qoy və bizi bir-birimizin yanında yerləşdir. Sən görəcəksən ki, bu zaman biz tamamilə yeni bir cazibədə zühur etmişik. Onlar qeyri-səlis məntiq dili ilə desək, içində olduqları mətnin qranulaları (ilkin vacib hissəcikləri) idi. Qranula, başqa cür ifadə etsək, cümlədən (mətndən) bütün artıq hissələri siləndən sonra yerdə qalan cövhərdir".

Kitabın redaktoru Orxan Aras əsər üçün yazdığı "Ön söz"ündə bu nəşrin gənc nəslin mənəvi formalaşmasında əhəmiyyətini vurğulayıb: "Kamal Abdulla kimi təcrübəli yazıçının keçmişdən bu günə toplayıb ötürdüyü aforizmlər gənclər üçün xüsusilə önəmlidir. Bu kitabda təkcə onun öz əsərlərindən vacib dialoqlar deyil, həm də onların sevgisini yenidən alovlandıran qlobal incəsənət hərəkatları haqqında bəzi dəyərli sitatlar var".

Kitabda yalnız müəllifin əsərlərindən deyil, əvvəlki nəşrlərdə yer almayan yeni nümunələr də təqdim olunub. Eyni zamanda, əhvalat və mövzuya uyğun olaraq Kamal Abdullanın sevdiyi yazıçı və şairlərin şeirləri, misraları və fikirləri də kitabda yer alıb.

Bu nəşr Azərbaycan ədəbiyyatının seçilmiş fikirlər vasitəsilə beynəlxalq auditoriyaya təqdim edilməsi baxımından mühüm hadisə hesab olunur.

Qeyd edək ki, "Seçmələrin seçməsi – Qranulalar" kitabı Bakıda 2024-cü ildə işıq üzü görüb.

Müəllifi kitabı yazmağa ruhlandıran imzalar Xalq şairi Ramiz Rövşən, akademik Rafiq Əliyev, Nazim Müzəfərli və Fərhad Təhməzlidir.

Görkəmli alim Kamal Abdullanın yaradıcılığı ilə bağlı təşkil olunan tədbirlərdən biri də kitab müzakirəsidir. Kitabxanaçı bir çox ziyalı insanları, şair və yazıçıları, ədəbiyya müəllimlərini, ali məktəb tələbələrini, şagirdləri, oxucuları tədbirə dəvət edir. Bildiyiniz kimi, belə tədbirlərin təşkil olunması yazıçının ədəbi irsinə verilən yüksək qiymətin təzahürü, ali dəyərlərlə zəngin irsi şübhəsiz ki, gənclərimiz üçün də örnəkdir, həyat təcrübəsidir.Yazıçının həyat və yaradıcılığı ilə bağlı məlumatları diqqətə çatdıran ziyalılar kitabla bağlı düşüncələrini, təhlili fikirlərini gənclərə çatdırıblar. Müzakirəsinə yığışdığımız kitab professor Niyazi Mehdinin Xalq yazıçısı, akademik Kamal Abdullanın yaradıcılığına həsr etdiyi "Kamal Abdullanın diskursları... Bildirdiklərindən bilinənlərə" adlı kitabıdır.




Kitabda professor Niyazi Mehdinin Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Kamal Abdullanın son 30 ildə qələmə aldığı elmi-bədii əsərləri haqqında olan məqalə və şərhləri toplanıb. Nəşr olunan kitabda Niyazi Mehdi Kamal Abdullanın təkcə Azərbaycan üçün yox, dünya elminə və mədəniyyətinə verdiyi yetənəkləri açmağa çalışmışdır". "Qanun" nəşriyyatında işıq üzü görən kitabın elmi redaktoru və son sözün müəllifi, filologiya üzrə fəlsəfə doktoru Maral Yaqubova, redaktoru filologiya üzrə fəlsəfə doktoru Toğrul Mehdidir. Kitabın müəllifi "Ön söz"də yazır: "İndi bizdəki ədəbiyyatşünas yazılarda "diskurs" termini artıq dəbə minmişdir. Onu ilk dəfə mən poststrukturalistlərdən götürərək "Yarımçıq əlyazma"nı anlayıb anlatmaq üçün işlətmişdim. Bu, mənim

nəyi götürməyimə örnəkdir, hərçənd, Kamalı nədənsə bu termin tutmamışdır. Məni isə tutmuşdu modernlik aurasına görə, çünki nə üçünsə məhz postmodernistlər və poststrukturalistlər onu işləkləşdirmişdilər... Mən “Yarımçıq əlyazma” ilə bağlı mətn yerinə “diskurs” işlədəndə bu çaları qabartdım. İndi isə oxuduğunuz kitabın başlığına çıxaranda Kamal Abdulla düşüncəsinin sıxılmış, enerji dağarcığına çevrilmiş deyimlərdə bildirilməsini nəzərdə tuturam. Bu yerdə Kamal diskursları ilə bağlı bildirmə və bilinmə sözlərini də anladım. Diskursla onu aydıran müəllif hansısa mənanı bildirir. Ancaq bu diskurslardan həm də elə gizli mənalar bilinir ki, heç söyləyənin də ağlına gəlmir. Bu anlamda yazılarım həm Kamalın diskurslarının bildirdiklərini açır, həm də bildirdiklərindən bilinənləri açıqlayır. “O olmasaydı, mən belə olmazdım” diskursundan itələnərək bunu deməliyəm: Kamal Abdullanın elmə və sənətə verdikləri olmasaydı, mənim də onları yozmaq əsasında tapdığım nəsnələr olmazdı”. Kitabda “Son söz”ün müəllifi dosent Maral Yaqubova isə kitabın elmi-nəzəri məziyyətlərini xarakterizə edərkən yazır: “Kitaba filosof Niyazi Mehdinin yazar və alim Kamal Abdullanın əsərləri haqda fərqli zaman, məkan və situasiyada yazdığı mətnləri (əslində refleksiyaları) daxildir. Kitab həmin refleksiyaları bir-birinə elə hörüb birləşdirir ki, yeni və bitkin bir mətn alınır. Filosofun illər boyunca yazar-alimin başqa-başqa mətnlərinə verdiyi suallar və cavabları bu yeni mətndə təkcə konseptual görk qazanmır, həm də filosofun düşüncə narrativləri ilə yazar-alimin düşüncə narrativlərinin “dialoq”unu yaradır”. Beləliklə, kitab oxucunu bütövlükdə Kamal Abdulla yaradıcılığının dərkinə aparan yeni cığırlar salır. Bu yollar yazıçının mətnlərinin dərin məna qatlarına, fəlsəfi mahiyyətinə işıq saçdıqca, bu əsərlərin təkcə milli söz sənətinə deyil, bütövlükdə dünya elmi və mədəniyyətinə verdiyi töhfələr də xüsusi vurğulanır. Hörmətli oxucu ümid edirik ki, bu kitablar sizin stolüstü kitablarınızdan biri olacaq. Xalq yazıçısı, ictimai xadim Kamal Abdullanın anadan olmasının 75 illik yubileyi münasibətilə keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecə əsasən iki hissədən ibarət olur. Bədii hissəsi çıxış və məruzələrlə başlayan tədbirin ikinci hissəsi yazıçının şeirləri, poemaları və sözlərinə bəstələnmiş mahnılarla davam edir. “Mən yazanda dincəlirəm” adlı tədbirin ssenarisini sizlər üçün təqdim edirik.

Səhnə gül-çiçək dəstələri ilə bəzədilir. Şairin portreti və şeir parçası səhnədən asılır.

Yollar getdi üzü dağa,
Yoxuşlar enişlərdən çox.
Kimsə yox xatırlamağa,
Unutmağa da kimsə yox

I Aparıcı: Müasir ədəbiyyatın aparıcı tendensiyalarını özündə əxz edən, yüksək bədii siqlətli, mütərəqqi ideyaları təbliğ edən elitar bədii sənət nümunələri dünya ədəbiyyatının ümumi sərvətləri kimi bəşəriyyətin ortaq dəyərlərini daha da zənginləşdirir.

Kamal Abdulla Azərbaycan ədəbiyyatı formalaşdığı dövrdən başlayaraq zaman-zaman digər dünya xalqları ilə qarşılıqlı əlaqədə olmuşdur. Milli ədəbiyyatın çoxəsrlik ədəbi təcrübəsi bu ədəbiyyatı yaradan xalqın mədəni-tarixi keçmişinin zəngin ənənələrə söykəndiyini göstərir. Bu möhtəşəm mənəviyyat xəzinəsi Şərq mədəniyyətinin tərkib hissəsi olan tarix boyunca dünya mədəniyyəti ilə qarşılıqlı münasibət və ilişgilər yaşamışdır. Kamal Abdulla Azərbaycanın görkəmli alimi, tanınmış yazıçısı, nüfuzlu ictimai xadimidir. Filologiya elmləri doktoru, professor, Azərbaycan Respublikasının Xalq yazıçısı, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, Azərbaycan Dillər Universitetinin rektoru, Azərbaycan Mədəniyyət Fondunun sədridir. Eyni zamanda vaxtilə Bakı Slavyan Universitetinin ilk rektoru, Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri kimi çoxşaxəli vəzifələrin və titulların daşıyıcısı kimi tanınır. Ancaq bunların içində titulsuz bir tanıtım kimliyi var. O da Kamal Abdullanın müasir Azərbaycan ədəbiyyatının yeni obrazını dünyaya tanıdan bir yazar olmasıdır. Oxucular səhnəyə daxil olur. Şair Vaqif Nəsibin Kamal Abdullaya həsr etdiyi “Bir vəhdətin üç Kamal Abdullasına” adlı şeirini söyləyirlər.

Bir də görürsən ayrılıb öz əsrindən
Qopuzla kökənli boylara,
Və Qorqud kökənli soylara,
Vaxtını calayır,
Ziyası çaxmağı, qovuyla,
Poetik bir tonqal qalayır...
Yolüstü Kərbəlada
durur, dərir nəfəsini...
Ustad önündə sınanır
Eşidib də xələfini
Füzuli ona inanır,
Şəbi-hicrana calayır...
Bir də gördün səyirtmədə
Şeirin qanadlı atını.
Əsl bayat balasıtək
Yağdırmada bayatını
Sözün zərgərinə dönür.
Alim kimi, şair kimi
əsrimizin əkinçisi.

Bir də gördün dönüb olub
nəsrimizin əkinçisi.
"Yarımçıq əlyazması"tək
Bütöv əsərlər göz açır.
həm butası, naxışından
"Sirri zəmanə" söz açır
nəsrin misgərinə dönür.
Çatdırıb da yetmişinə
Bu üç yolun bir amalı.
Gəlib çatıb yetmişinə
Bir vəhdətin üç Kamalı!

II Aparıcı: Onun müxtəlif dillərə tərcümə olunan əsərləri müasir Azərbaycan ədəbiyyatının daha dolğun şəkildə tanıtımı üçün böyük əhəmiyyət daşıyır. Hazırda Kamal Abdulla nəsri vasitəsilə dünyanın bir çox ölkəsində Azərbaycan ədəbiyyatının yeni dalğası haqqında geniş oxucu kütləsində təsəvvürlər formalaşır. Azərbaycan dilçiliyinin öndə gələn simalarından biri olan akademik Kamal Abdullanın həm elmi, həm də ədəbi irsi "Dədə Qorqud" eposunun mətni üzərindən başladığına görədir ki, ədəbiyyatda da hadisə yarada bilmişdir. Özünü janr məhdudiyyətinin içində hiss etmədən fərqli baxışını ortaya qoymaqla müstəqillik dövrümüzün ədəbiyyatına ötən yüzilin 70-ci illər ədəbi mühitinin təmsilçisi kimi uğurla transformasiya olunan az saylı ədəbiyyat adamından biridir.Ədəbi platformasını "Hamının gördüyü və tanıdığı dünyanı bir də olduğu kimi yazmaq kimə və nəyə lazımdır?" ifadəsi ilə bəyan edən Kamal Abdulla ədəbiyyatımızda tarixlə müasirliyi sağlam mühakimə ilə əlaqələndirə bilən yazar olaraq öz ənənələri dağıdan tezislərini cəmiyyətə də qəbul etdirmək cəsarətini göstərə bildi.

Oxucular səhnəyə daxil olur. Kamal Abdullanın "Unutmağa kimsə yox" adlı şeirini söyləyirlər.

Mənə deyən gərək nə olub axı,
Nə çabalayırsan, söylə, nə xəbər.
Sən çətin tapasan axtardığını,
Sən axtardığını itirməyiblər.

Nələr arzuladıq, nələr qazandıq,
Hələ nələri də itirəcəyik.
Yollara sarılıb biz də uzandıq,
Hara gəlib çatdıq belə tələsik?

De mənə varmıydın, ya bəlkə yoxdun?
De mənə, yuxudu bəlkə bu dünya?
Bu bulaq suyunda sənmiydin axdın?
Bu bulud apardı səni haraya?

Vaxt gəlir, hər şeyin yetişir sonu,
Bu nəydi qurtardı, yox oldu, getdi?
Bu da bir həyatdı, oynadıq onu,
Bu da bir oyundu, yaşadıq bitdi.

Yollar getdi üzü dağa,
Yoxuşlar enişlərdən çox.
Kimsə yox xatırlamağa,
Unutmağa da kimsə yox...

I Aparıcı: Haqlı olaraq ədəbi tənqidçilər vurğulayırlar ki, Kamal Abdullanın elmi, bədii, kulturoloji yaradıcılığının ortaq istiqaməti minilliklər içində xalqın yaradılış və inkişaf kodunu özündə əks etdirən sirrin axtarışıdır. Onun ədəbi eksperimentlərinin, bədii təxəyyülünün hamısı müasir yaşam modelimiz üçün həyati əhəmiyyət daşıyan o məlum və həm də məchul sirri bütün dərin qatlarına qədər çözməyə, aydınlatmağa yönəlmişdir. Təsadüfi deyil ki, Kamal Abdullanın kitablarının adında da bu trayektoriya tam şəkildə ehtiva olunur: "Gizli Dədə Qorqud", "Sirr içində dastan və yaxud Gizli Dədə Qorqud", "Mifdən Yazıya və yaxud Gizli Dədə Qorqud", "Sehrbazlar dərəsi", "Gümüş dövrün sirləri", "Sirr içində nəğmələr", "Yarımçıq əlyazma" və s.  Hamısında da tarixin dərin qatlarında unutduğumuz, unutdurulmuş sirrin axtarışı prosesi yeni dövrün oxucusunu da öz axtarış aurasına fanatikcəsinə bağlaya bilir. Həm də bu proses postmodern ədəbiyyatın şifrələrinin müşayiəti ilə gerçəkləşməkdədir.

Oxucular səhnəyə daxil olur. Kamal Abdullanın "Haralara gətirəcək bizi bu yol?!" adlı şeirini söyləyirlər.

Qorumadıq özümüzü, nəfsimizi,
İnanmıram saxlayacaq izimizi.
Nə biz yolu tanıyırıq, nə yol bizi!
Haralara gətirəcək bizi bu yol?!

Hər tərəfi uçurumdu, sıldırımdı,
Bilmək olmur sonu yoxdu, bir addımdı?!
Elə bil ki, göydən düşdü, ildırımdı,
Haralara gətirəcək bizi bu yol?!

Qan var bunun dönüşündə, gedişində,
İtib-batıb bu dünyanın gərdişində.
Bu yol özü əzab dolu, dərd içində…
Haralara gətirəcək bizi bu yol?!

İldırım tək o göründü gözümüzə,
Əlvida da deməyəcək bir gün bizə.
Yox olacaq, arxasınca gəzə-gəzə
Haralara gətirəcək bizi bu yol?!

II Aparıcı: Silinməz yaddaşı, möhkəm iradəsi olan akademik Kamal Abdulla yaradıcılığı müasir həyatın inkişaf ritmi ilə həmahəngdir. O, nəinki Azərbaycan ədəbiyyatına, ümumiyyətlə, dünya ədəbiyyatına yenilik gətirən yazıçılarımızdandır. Əsərlərinin əksəriyyətində yaddaş probleminin fəlsəfəsi açılır. Köhnəlik tam inkar olunmamaqla yeniliklər cərəyan edir Kamal Abdulla yaradıcılığında. Buna görə də onun bədii yaradıcılığı Azərbaycandan çox-çox uzaq ölkələrdə rəğbətlə qarşılanır.Kamal Abdullaya şöhrət qazandıran əsərləri “Yarımçıq Əlyazma”, “Sehrbazlar dərəsi”, “Unutmağa kimsə yox”, “Sirlərin sərgüzəşti” romanları əldən-ələ gəzən kitablardandır. Onun, demək olar ki, bütün romanları, hekayələri, esseləri müxtəlif dillərə tərcümə edilib, bir sıra xarici ölkələrin nüfuzlu nəşriyyatlarında böyük tirajla çap olunub. Oxucular səhnəyə daxil olur. Kamal Abdullanın “Allahım,sən mənim ürəyimdəsən” adlı şeirini söyləyirlər.

Uzaq ulduzlardan süzülən işıq
sənin işığın…
uca ucalıqlar məskənin sənin,
Allahım, sən mənim
Ürəyimdəsən!

Həyat ətirlisən, həyat nəfəsli,
Soyuq əsrlərin qaranlığında
Sən elə sən idin
elə o vaxtdan,
Allahım, sən mənim
Ürəyimdəsən!

Nəfəsin var etdi

varlığı yoxdan –
məni yaratdın.
Hardasan axtarır bütün beyinlər,
Allahım, sən mənim
Ürəyimdəsən!

Sən məni görməzsən,
yüksəkliyindən
yer üstə yeriyib kiçilmişəm mən.
Elə qaçarsan ki,
gərəkliyindən
Hamı şübhə edər varlıqsanmı sən?
Allahım, sən mənim
Ürəyimdəsən!

Bəli , əziz oxucu bir daha qeyd etmək istərdik ki, Kamal Abdulla yaradıcılığı yalnız Azərbaycan ədəbiyyatının deyil, bütövlükdə Türk dünyasının ortaq mənəvi sərvətidir. Onun əsərlərində dil, fəlsəfə və mifologiyanın qovuşduğu unikal yaradıcılıq modeli ədəbiyyat və elmin yeni istiqamətlərinə yol açır.

I Aparıcı: Hörmətli tədbir iştirakçıları gəlin sizinlə birlikdə əziz ziyalımız Kamal müəllimə təbrik ünvanlayaq.

Hörmətli Kamal müəllim! Sizi yubileyiniz münasibətilə təbrik edirik! Sizi - Müstəqil Azərbaycan elminin inkişafında xidmətləri olan, sözün əsl mənasında elm və təhsil fədaisi, görkəmli alim, vətənpərvər ziyalı, yurdsevər və xeyirxah insanı seyr etməkdən qürur duyuruq.

Qələbə ərəfəsində yazdığınız "Müharibə və onun ədəbi - bədii əks-sədası" adlı məqalənizdə niyyət etdiyiniz kimi Qarabağ torpağının ruhunu eşidib yeni-yeni əsərlər yaratmağınızı arzu edirik! Tədbir musiqi sədaları altında başa çatır.

## Ədəbiyyat siyahısı

Kitabları

300 Azərbaycanlı : ədəbi-bədii esselər / Kamal Abdulla ; red.: E. Başkeçid, Ə. Mirzallı, Ş. Ağakişiyeva ; ön söz R. Rövşən. - Bakı : Mütərcim, 2007. - 340 s.

Azərbaycançılıq və "Kitabi-Dədə Qorqud" dastanı / Kamal Abdulla. - Bakı : Şərq-Qərb, 2020. - 284 s. : il., rəngli foto ; 21 sm.

Dilçiliyə səyahət : Dilçi olmayanlar üçün dilçilik / Kamal Abdulla ; red.: M. Mirzəliyeva, Ç. Hüseynzadə. - Bakı : Mütərcim, 2010. - 200 s. ; 21 sm.

Kitabi-Dədə Qorqud poetikasına giriş : Dansökülən variant / Kamal Abdulla ; red. Ə. Mirzallı ; rəy.: M. İmanov, M. Qaraxanoğlu ; tex. red. Ş. Nəqşani. - Bakı : "RS" Poliqraf MMC, 2017. - 320 s. ; 20 sm.

Kitabi-Dədə Qorqudda semantik sayrışmalar : mifolinqvistika / Kamal Abdulla. - Bakı : Sim-Sim, 2022. - ISBN 978-9952-28-611-3

Qəribədi deyilmi? / Kamal Abdulla ; red. A. Allahverdiyev. - Bakı : BDU-nun mətbəəsi, 1998. - 43 s. - kiril əlifbası ilə

Mənim Füzulim / Kamal Abdulla ; red. C. Zeynallı ; bədii red. Z. A. Əliyev. - Bakı : Mütərcim, 2019. - 120 s. : il., rəngli il. ; 19 sm. - ISBN 978-9952-28-482-9

Seçmələrin seçməsi-qranulalar / Kamal Abdulla ; tərt.ed.: S. Əliyeva, A. Təhmasib ; rəy.: Q. Rüstəmov ; red.: M. Kazımoğlu, M. Yaqubova ; tex.red.: Ş. Mirzayeva, R. Müslümova ; bur.məsul. G. Muxtarova ; dizayn C. Kişiyev. - Bakı : EVEREST, 2024. - 464 s. ; 21 sm. - ISBN 978-9952-8474-8-2

Sehrbazlar dərəsi : roman / Kamal Abdulla ; ön söz: Ə. Mirzallı, A. Talıbzadə. - Bakı : Mütərcim, 2006. - 224 s.

Sirr içində dastan və yaxud gizli Dədə Qorqud-2 / Kamal Abdulla ; red. V. Salmanbəyli ; rəs. N. Əliyeva ; "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi üzrə Dövlət komissiyası. "Kitabi-Dədə Qorqud kitabxanası". - Bakı : Elm ; Bakı : Yeni nəşrlər evi, 1999. - 288 s. ; 21 sm. - ISBN 5-8066-1049-7

Unutmağa kimsə yox... : roman / Kamal Abdulla ; ön söz A. Acaloğlu. - Bakı : Qanun, 2011; 2018. - 528 s. : rəngli foto ; 21 sm. - ISBN 978-9952-26-157-8

Yarımçıq əlyazma : roman / Kamal Abdulla. - Bakı : XXI-Yeni Nəşrlər Evi, 2004. - 288 s. ; 21 sm.

Əsərləri dövri mətbuatda

Adaşlar : hekayə / Kamal Abdulla // Ulduz. - 2008. - № 3. - S. 2-7.

Alın yazısı hədər yazılmır : şeir / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2017. - 9 dekabr. - № 46/47. - S. 11.

Azərbaycan multikulturalizminin qaynaqları / Kamal Abdulla // Yeni Azərbaycan. - 2017. - 28 aprel. - № 74. - S. 4.

Bir yas mərasiminin yeddinci günü / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2023. - 13 may. - № 18. - S. 9.

Bizim ədəbiyyatın Coysa aparan heç bir yolu yoxdur : [müsahibə] / K.Abdulla ; [söhbətləşdi] A. Turan // Ədəbiyyat qəzeti. - 2017. - 11 fevral. - № 5. - S. 16-18.

Böyük etnoqraf-tarixçi alim : Teymur Bünyadov - 85 / Kamal Abdulla // Xalq qəzeti. - 2013. - 10 fevral. - № 31. - S. 7.

Casus: qadağan olunmuş tamaşa / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2022. - 24 sentyabr. - № 37. - S. 16-17.

Dəvə yağışı: bir hekayə, iki premyera / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2022. - 17 sentyabr. - № 36. - S. 4-5.

Dilçiliyə səyahət / Kamal Abdulla // Ulduz. - 2007. - № 1, № 2. - S.96-107 ; 8-15.

Ədəbiyyatımızın Elçin zirvəsi / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2023. - 20 may. - № 19. - S. 4.

Əvvəl-axır yazılanlar : ədəbi esselər / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2018. - 29 sentyabr. - № 36. - S. 8.

Əvvəl-axır yazılanlar : ədəbi esselər / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2018. - 13 oktyabr. - № 38. - S. 4-5.

Əvvəl-axır yazılanlar : ədəbi esselər / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2018. - 20 oktyabr. - № 39. - S. 5.

Əvvəl-axır yazılanlar : ədəbi esselər / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2018. - 3 noyabr. - № 41. - S. 7.

Əvvəl-axır yazılanlar : ədəbi esselər / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2018. - 24 noyabr. - № 44. - S. 8.

Əvvəl-axır yazılanlar : ədəbi esselər / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2018. - 8 dekabr. - № 46. - S. 8.

Əvvəl-axır yazılanlar : ədəbi esselər / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2019. - 2 fevral. - № 4. - S. 2. ; 8 mart. - № 9**. - S. 7.**

Füzuli xatırlayır: Bir dərdli macəra imiş eşq : dördüncü esse / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2019. - 5 oktyabr. - № 34. - S. 5.

Füzuli xatırlayır: Deyildim mən sənə mail : birinci esse / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2019. - 14 sentyabr. - № 31. - S. 6-7.

Füzuli xatırlayır: Tifl həm cövlan edər, amma ağacdan atı var : ikinci esse / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2019. - 21 sentyabr. - № 32. - S. 6.

Füzuli xatırlayır: Ey Füzuli : üçüncü esse / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2019. - 28 sentyabr. - № 33. - S. 6-7.

Füzuli inanır : esse / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2019. - 16 noyabr. - № 39/40. - S. 6.

Füzuli səsləyir : esse / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2019. - 2 noyabr. - № 38. - S. 6.

Gülçöhrə xanım və Əsgər ağa : Telefilm / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2023. - 18 mart. - № 11. - S. 16-19.

Hacı Mir Həsən ağa Səyyah : hekayə / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2016. - 17 dekabr. - № 50. - S. 8-9.

Hacı Mir Həsən ağa Səyyah : hekayə / Kamal Abdulla // Yada düşdü. - 2021. - № 2(43). - S. 15-19.

Hadiyə məhəbbətlə... : Məhəmməd Hadi - 140 / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 9.

Həyət : hekayə / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2021. - 6 noyabr. - № 44. - S. 18-19.

Xalq təfəkkürü / Kamal Abdulla // 525-ci qəzet. - 2019. - 16 noyabr. - № 152. - S. 12.

Xalq yazıçısı Kamal Abdulla : Dildə islahat aparmaq mümkün deyil : [müsahibə] / K. Abdulla ; [söhbətləşdi] N. Yalçın // Ədəbiyyat qəzeti. - 2024. - 20 dekabr. - № 50. - S. 4-5.

Xalq yazıçısı Kamal Abdulla: "Mən həmişə mümkün olmayana can atmışam" : [müsahibə] / Kamal Abdulla ; [söhbətləşdi] Ulucay Akif // 525-ci qəzet. - 2023. - 14 aprel. - № 64. - S. 12-13.

Kamal Abdulla: İstərdim ki, ədəbi mətbuat daha çox olsun : Kamal Abdullayla [müsahibə] / K. Abdulla ; [söhbətləşdi] İ. Yaşar // Ulduz. - 2021. - N 9(628). - S. 28-32.

Kamal Abdulla: Zəfərimiz milli birliyimizin və dövlətimizi gücünün nəticəsidir : [müsahibə] / K. Abdulla ; [söhbətləşdi] N. Yalçın // 525-ci qəzet. - 2025. - 8 noyabr. - № 205. - S. 13.

Kamran Əliyev - 60 / Kamal Abdulla // Kaspi. - 2018. - 2 iyun. - № 98. - S. 14.

Kəklik : hekayə / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2021. - 23 oktyabr. - № 42. - S. 10-11.

Kitabi - Dədə Qorqud qeyri - səlis məntiqin epistemoloji işığında : Rəşad Məcid: "Qocalığımı Ağoğlanda yaşamaq istəyərəm" / Kamal Abdulla, R. Əliyev // 525-ci qəzet. - 2022. - 18 iyun. - № 106. - S. 12 - 13.

Kitabi Dədə Qorqudda informasiya mübadiləsi, yaxud xəbərləşmə vasitələri : Gizli Dədə Qorqud silsiləsindən / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2024. - 24 avqust. - № 32. - S. 4.

Kitabi-Dədə Qorqud mətni və qeyri-səlis məntiqlə üçüncünün axtarışı / Kamal Abdulla, R. Əliyev // 525-ci qəzet. - 2022. - 14 may. - № 83. - S. 12-13.

Kitabi-Dədə Qorqudda ilkin demokratik prinsiplər / Kamal Abdulla, R. Əliyev // Ədəbiyyat qəzeti. - 2024. - 20 yanvar. - № 2. - S. 3.

Kitabi-Dədə Qorqudda oyun və onun təzahürü : Gizli Dədə Qorqud silsiləsindən / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2024. - 27 iyul. - № 28. - S. 4. ; 17 avqust. - № 31. - S. 2. - ardı var.

Kitabi-Dədə Qorquddan sirr içində nəğmələr : şeir / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 16.

Konsert : hekayə / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2021. - 13 noyabr. - № 45. - S. 9.

Qatardakı adam : hekayə / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2024. - 17 fevral. - № 6. - S. 6-7.

Qatardakı adam : hekayə / Kamal Abdulla // Yada düşdü. - 2024. - № 1 (50). - S. 19-22.

Qeyri-səlis məntiq və "Kitabi-Dədə Qorqud"da demokratik düşüncə tərzi axtarışları / Kamal Abdulla, R. Əliyev // 525-ci qəzet. - 2022. - 13 avqust. - № 143. - S. 8, 9.

Məhəbbət adası : hekayə / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2023. - 22 iyul. - № 26. - S. 16-17.

Musa Yaqubu oxuyarkən... : "İndi bildim nağıldı..." Bakı, 2017 : esse / Kamal Abdulla // 525-ci qəzet. - 2019. - 2 noyabr. - № 146. - S. 11.

Müharibə və onun ədəbi-bədii əks-sədası / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2020. - 17 oktyabr. - № 46. - S. 6.

Nyutonun pişikləri : esse / Kamal Abdulla // 525-ci qəzet. - 2020. - 19 sentyabr. - № 114. - S. 10.

Salur Qazan və Aruz Qoca : "Gizli Dədə Qorqud" silsiləsindən / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2024. - 20 iyul. - № 27. - S. 3.

Sən gözəllər gözəlindən də gözəlsən, gözəlim! : Kitabi - Dədə Qorqud və Qeyri - Səlis Məntiq kitabından / Kamal Abdulla, R. Əliyev // 525-ci qəzet. - 2022. - 28 may. - № 93. - S. 12-13.

Səngərdəki səs : hekayə / Kamal Abdulla // 525-ci qəzet. - 2020. - 31 oktyabr. - № 144. - S. 15.

Sirlərin sərgüzəşti / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2019. - 20 aprel. - № 13. - S. 16-17 ; 27 aprel. - № 14. - S. 16-17. ; 4 may. - № 15. - S. 16-17. ; 11 may. - № 16. - S. 16-17. ; 18 may. - № 17. - S. 16-17. ; 25 may. - № 18. - S. 16-17. ; 1 iyun. - № 19. - S.16-17. - Ardı var.

Söz və onun mifoloji buxovları : Dilimiz və mifologiya əsərindən / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2020. - 14 mart. - № 10. - S. 6.

Şah İsmayıl yaxud hamı səni sevənlər burdadı... : dramaturgiya / Kamal Abdulla // Azərbaycan. - 2010. - № 8. - S. 15-46.

Ulu Öndərdən Qalib Öndərə qədər / Kamal Abdulla // 525-ci qəzet. - 2023. - 8 iyul. - № 117. - S. 9.

Ulu Öndərə heyran olmamaq mümkün deyildi : [müsahibə] / K. Abdulla ; [söhbətləşdi] S.Hüseynoğlu // Ədəbiyyat qəzeti. - 2023. - 6 may. - № 17. - S. 10.

Umberto Eko ilə ilk və son görüş / Kamal Abdulla // Ədəbiyyat qəzeti. - 2016. - 14 may. - № 18. - S. 12-13.

Ümummilli lider Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisi kimi / Kamal Abdulla // Ulduz. - 2023. - № 4(645). - S. 32-34.

Varisin "qızıl cib saatı" / Kamal Abdulla // Azərbaycan : jurnal. - 2020. - № 10. - S. 13.

**Haqqında dövri mətbuatda**

**Abbasoğlu, S**. Düşüncə, mətn və semantika: mifopoetikadan mifolinqvistikaya / Sərxan Abbasoğlu, S. Pənahoğlu, H. Valehoğlu // Ədəbiyyat qəzeti. - 2022. - 17 dekabr. - № 49. - S. 8.

**Abbasova, G**. Kamal Abdulla dünyasında "Kitabi-Dədə Qorqud" : İki pyes haqqında bir yazı / Gülnarə Abbasova // 525-ci qəzet. - 2018. - 2 iyun. - № 99. - S. 14.

**Akimova, E**. Ən yeni nəsrin ərəfəsi - Səngərdəki səs : Kamal Abdulla - 70 / Elnarə Akimova // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 17.

**Amin, S**. Bu ömür ki var - əvvəli hanı? : Yazıçı Kamal Abdullanın "Alın yazısı hədər yazılmır" şeirinin təhlili : 1 şeir/2 rakurs / Sərdar Amin // Ədəbiyyat qəzeti. - 2017. - 9 dekabr. - № 46/47. - S. 11.

**Anar.** Ad günün mübarək, Kamal / Anar // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 4.

**Anar.** Ad günün mübarək, Kamal! : Kamal Abdulla - 60 / Anar // Ədəbiyyat qəzeti. - 2010. - 3 dekabr. - № 47. - S. 4.

**Aras, O**. Kamal Abdulla və Şərqin sirləri / Orxan Aras // Ədəbiyyat qəzeti. - 2020. - 19 iyun. - № 18/19. - S. 27.

**Aslanqızı , B**. Kamal Abdulla imzası / Billurə Aslanqızı // 525-ci qəzet. - 2020. - 4 dekabr. - № 167. - S. 11.

**Babaşova, A**. Kamal Abdullanın "Gülçöhrə xanım və Əsgər ağa" əsəri haqqında qeydlər / Aynur Babaşova // Ədəbiyyat qəzeti. - 2023. - 8 iyul. - № 25. - S. 6.

**Babaşova, A**. Məlum Dastanın sərhədləri daxilində uydurmadan kənar, yad sonsuz lüğətlə yazılmış bir roman / Aynur Babaşova // Ədəbiyyat qəzeti. - 2021. - 14 avqust. - № 33. - S. 6.

**Balaxan, S**. "Sirlərin sərgüzəşti" haqda qeydlər : Kamal Abdullanın eyniadlı əsəri haqqında / Sərraf Balaxan // Ədəbiyyat qəzeti. - 2019. - 26 oktyabr. - № 37. - S. 21.

**Balaxan, S**. Azad Mirzəcanzadə ilə həmmüəlliflikdə : Kamal Abdulla - 70 / Sərraf Balaxan // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 21.

**Barat, E**. Gəlməyən adam : Kamal Abdullanın "Nar çiçəkləri" adlı şeirlər kitabı haqqında düşüncələrim / Elşad Barat // Kaspi. - 2019. - 5 yanvar. - № 227. - S. 14-15.

**Barat, E**. Kamal Abdullanın şeirlərində gəlməyən adam / Elşad Barat // Ədəbiyyat qəzeti. - 2023. - 29 iyul. - № 27. - S. 6.

**Behrudi, R**. Təkbaşına adam : Kamal Abdullaya / Rüstəm Behrudi // Ədəbiyyat qəzeti. - 2020. - 25 yanvar. - № 3. - S. 6-7.

**Behrudi, R**. Təkbaşına adam : şeir / Rüstəm Behrudi // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 21.

**Bejenaru, L**. Çoxşaxəli şəxsiyyətin örnək taleyi / Lyudmila Bejenaru ; tərc. S. Zaman // 525-ci qəzet. - 2025. - 2 avqust. - № 135. - S. 16-17.

**Bejenaru, L**. Kamal Abdulla: mətnin mətn daxilidə möcüzələri / Lyudmila Bejenaru // Ədəbiyyat qəzeti. - 2025. - 3 oktyabr. - № 36. - S. 8-9.

**Beşkonak, A.** Azərbaycan ədəbiyyatında paralel dünyalar / Aynur Beşkonak // Ədəbiyyat qəzeti. - 2019. - 26 yanvar. - № 3. - S. 11.

**Beşkonak, A.** Azərbaycan ədəbiyyatında paralel dünyalar : Kamal Abdulla fenomeni / Aynur Beşkonak // Ədəbiyyat qəzeti. - 2019. - 23 fevral. - № 7. - S. 21.

**Beşkonak, A.** Möhtəşəm ahəng / Aynur Beşkonak // Ədəbiyyat qəzeti. - 2019. - 16 fevral. - № 6. - S. 19.

**Bəkirqızı, P**. Öyrənməkdən və öyrətməkdən usanmayan insan - Kamal Abdulla / Pərvanə Bəkirqızı // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 24.

**Bondarev, A**. Hermenevtikanın aralıq mövqeyi : Kamal Abdullanın "Kitabi-Dədə Qorqud poetikasına giriş" kitabına ön söz / Aleksandr Bondarev // Ədəbiyyat qəzeti. - 2019. - 13 iyul. - № 24. - S. 8-9.

**Cavi Dan.** Şeir yazmaq : Yazıçı Kamal Abdullanın "Alın yazısı hədər yazılmır" şeirinin təhlili : 1 şeir/2 rakurs / Cavi Dan // Ədəbiyyat qəzeti. - 2017. - 9 dekabr. - № 46/47. - S. 11.

**Cəfərov, E**. Axırdan sonra başlayan Kamal Abdulla yaxud sonu olmayan başlanğıcın izində / Elçin Cəfərov // Mədəniyyət.az. - 2018. - № 319. - S. 55-56.

Dövlət müşaviri Kamal Abdulla: Azərbaycanda multikulturalizmin çiçəklənməsi göz qabağındadır : akademik Kamal Abdulla Misirin "Əl-Əxbar" qəzetinin baş redaktoru Taril-əl-Tahir Hifniyə müsahibə verib // Ədəbiyyat qəzeti. - 2016. - 3 dekabr. - № 46-47. - S. 12-13.

**Elçin.** Sirlərin bədii və elmi sərgüzəştləri : Kamal Abdullanın 70 illiyinə / Elçin // 525-ci qəzet. - 2020. - 5 dekabr. - № 168. - S. 10.

**Elçin.** Sirlərin bədii və elmi sərgüzəştləri : Kamal Abdullanın 70 illiyinə / Elçin // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 5.

**Əliqızı, A**. "Yarımçıq əlyazma" və yaxud tariximizin ibrət dərsləri : Kamal Abdullanın "Yarımçıq əlyazma" əsəri haqqında rəy / Almaz Əliqızı // Azərbaycan. - 2009. - № 1. - S. 195-198.

**Əlişanoğlu, T**. Ədəbiyyatda Kamal Abdulla / Tehran Əlişanoğlu // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 18.

**Əliyev, R**. Mühit qəlpəsinə dönən ömür... : Kamal Abdullanın yaradıcılığı haqqında / Rəhim Əliyev // Ədəbiyyat qəzeti. - 2011. - 17 iyun. - № 22. - S. 3.

**Əlizadə, M**. Universitet zəkası : Kamal Abdulla - 70 / Məryəm Əlizadə // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 23.

**Göytürk, Ş**. Dilçiliyə səyahət : Kamal Abdullanın "Dilçiliyə səyahət" kitabı üzərinə / Şəlalə Göytürk // Ədəbiyyat qəzeti. - 2019. - 13 aprel. - № 12. - S. 7.

**Hacı, K**. Laokoon bürcü altında sevgi dastanı / Kənan Hacı // Ədəbiyyat qəzeti. - 2022. - 30 aprel. - № 15. - S. 4.

**Həbibbəyli, İ**. Dədə Qorqud dünyasına giriş : Kamal Abdulla - 70 / İsa Həbibbəyli // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 6-7.

**Həbibbəyli, İ**. Elmilik və bədiilik: paralelliklərin vəhdəti : Kamal Abdulla - 60 / İsa Həbibbəyli // Ədəbiyyat qəzeti. - 2010. - 3 dekabr. - № 47. - S. 4.

**Həbibbəyli, İ**. Sirlərin sərgüzəştlərindən katarsisə : Xalq yazıçısı, akademik Kamal Abdullanın "Sirlərin sərgüzəşti" romanı haqqında / İsa Həbibbəyli // Ədəbiyyat qəzeti. - 2020. - 11 yanvar. - № 1. - S. 18-19.

**Həsənli, A**. Mənim Füzulim - hamının Füzulisidir : Kamal Abdullanın "Mənim Füzulim" kitabı haqqında / Ağacəfər Həsənli // 525-ci qəzet. - 2020. - 8 fevral. - № 15. - S. 14-15.

**Hüseynoğlu, S**. Akademik Kamal Abdullanın yeni monoqrafiyası : "Kitabi-Dədə Qorqud" poetikasına giriş. Dansökülən variant / Sərvaz Hüseynoğlu // Ədəbiyyat qəzeti. - 2017. - 22 aprel. - № 14. - S. 2.

**Hüseynoğlu, S**. Ədəbiyyat həqiqətinin yiyəsiz qalmadığı məkan : Yazıçı Kamal Abdullanın "Düma ilə Coys arasında" kitabının müzakirəsi haqqında / Sərvaz Hüseynoğlu // Ədəbiyyat qəzeti. - 2016. - 15 oktyabr. - № 38. - S. 11.

**Hüseynoğlu, S**. Hər şey tanışdır köhnə nağıltək / Sərvaz Hüseynoğlu // Ədəbiyyat qəzeti. - 2018. - 29 dekabr. - № 51/52. - S. 6-7.

**Hüseynoğlu, S**. Sirri-zəmanənin zamanı : Kamal Abdullanın "Sirri zəmanə" kitabı haqqında / Sərvaz Hüseynoğlu // Ədəbiyyat qəzeti. - 2015. - 10 oktyabr. - № 53. - S. 22.

Xalq yazıçısı Kamal Abdulla: Ünsiyyətdə olduğum adamlara müşahidə obyekti kimi baxmıram : Azərbaycan Dillər Universitetinin rektoru, Xalq yazıçısı, akademik

Kamal Abdullanın ASAN Radioya müsahibəsi // 525-ci qəzet. - 2019. - 7 dekabr. - № 161. - S. 8.

Xalq yazıçısı Kamal Abdullanın "Seçilmiş əsərləri" nin dördüncü cildi işıq üzü görüb // 525-ci qəzet. - 2020. - 19 noyabr. - № 156. - S. 9.

**İbişova, V**. Mətnin partiturluq kateqoriyasının müəyyənləşməsində etnomədəni və psixoloji amillərin rolu : Kamal Abdullanın "Tarixsiz gündəlik" əsəri əsasında / Vəfa İbişova // Ədəbiyyat qəzeti. - 2018. - 3 fevral. - № 4. - S. 22.

**İbrahimov, E**. Hamı səni sevənlərdən ərmağan : Kamal Abdulla - 70 / Elçin İbrahimov // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 29.

**İmanov, M**. Kamal Abdullanın sənət yolu sirri və sehri ilə oxucunun öz arxasınca çəkib aparan yoldur / Muxtar İmanov // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 14.

**İsmayıl, Z**. Elmi və bədii yaradıcılığın zirvəsində : Kamal Abdulla - 70 / Zülfiyyə İsmayıl // 525-ci qəzet. - 2020. - 15 fevral. - № 18. - S. 21.

**İsmayılova, Y**. Eposun mətnaltı "sirləri" : Kamal Abdullanın "Kitabi-Dədə Qorqud" poetikasına giriş. Dansökülən variant monoqrafiyası ilə bağlı düşüncələrim / Yeganə İsmayılova // Ədəbiyyat qəzeti. - 2017. - 13 may. - № 17. - S. 22.

**İto, İçiro**. "Yarımçıq əlyazma"ya son söz : Əsər "Sehirbaz dərəsi"ndən sonra yazıçının Yaponiyada nəşr edilmiş ikinci romanıdır. Vaseta Universitetinin professoru İçiro İtonun əsərlə bağlı həmin kitabda yer almış məqaləsini oxuculara təqdim edirik / İçiro İto ; tərc. Y. İbrahimov // 525-ci qəzet. - 2018. - 27 yanvar. - № 17. - S. 14-15.

Kamal Abdulla - 69: yalnız faktlar / tərt. ed.: C. Zeynallı, E. İbrahimov, S. Balaxan // Ədəbiyyat qəzeti. - 2019. - 7 dekabr. - № 45/46. - S. 12-13.

Kamal Abdulla əsərləri 7 cilddə // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 29.

Kamal Abdulla: yalnız faktlar // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 2.

Kamal Abdulla: Yazıçı olmurlar, yazıçılığı yaşayırlar : "Ədəbiyyat qəzeti" "Mən necə yazıçı oldum" layihəsində: [müsahibə] / Kamal Abdulla ; [söhbətləşdi] M. Ağaoğlu // Ədəbiyyat qəzeti. - 2016. - 10 sentyabr. - № 33. - S. 2.

**Kamal, R**. Kitabxana, əlyazma və Borxesin ruhu : Kamal Abdullanın 65 yaşına / Rüstəm Kamal // Ədəbiyyat qəzeti. - 2015. - № 61.

**Kamal, R**. Ömür yazı və mif kimi : Ustad Kamal Abdullanın 70 yaşına / Rüstəm Kamal // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 25.

**Kazımoğlu, M**. Kamal Abdulla "Dansökülən"i : Kamal Abdullanın "Kitabi-Dədə Qorqud" poetikasına giriş - Dansökülən variant" monoqrafiyası ilə bağlı düşüncələr / Muxtar Kazımoğlu // Ədəbiyyat qəzeti. - 2017. - 8 iyul. - № 24. - S. 18-20.

**Kazımov, İ**. Sirlərin çoxqatlı sərgüzəşti : Xalq yazıçısı Kamal Abdullanın yeni romanının uğurunu şərtləndirən məqamlar / İsmayıl Kazımov // 525-ci qəzet. - 2020. - 18 yanvar. - № 6. - S. 17, 23.

**Kedrov, K**. Sözün Xəzər ümmanı / Konstantin Kedrov // 525-ci qəzet. - 2019. - 30 noyabr. - № 158. - S. 12.

**Kərimli, T**. Unutmağa əsas yox... : Kamal Abdulla - 70 / Teymur Kərimli // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 13.

**Qaragözova, E**. Xalq yazıçısı Kamal Abdullanın yaradıcılğında postmodernist poetika modelleri / Elnarə Qaragözova // Ədəbiyyat qəzeti. - 2025. - 26 sentyabr. - № 35. - S. 9.

**Qaragözova, E**. Sirlərin sərgüzəşti, yoxsa əlyazmanın səyahətnaməsi? : Kamal Abdullanın "Sirlərin sərgüzəşti" romanı haqqında / Elnarə Qaragözova // Ədəbiyyat qəzeti. - 2019. - 21 dekabr. - № 50/51/52. - S. 7.

**Qaraxanoğlu, M**. Eposun naməlum boyuna çevrilən yazıçı : Kamal Abdullanın yeni romanı haqqında qeydlər / Mehman Qaraxanoğlu // 525-ci qəzet. - 2021. - 8 may. - № 82. - S. 12-13.

**Qaraxanoğlu, M**. Kamal Abdulla yubileyi üzərindən sərbəst gəzişmələr : esse / Mehman Qaraxanoğlu // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 22.

**Qaraxanoğlu, M**. Kamal Abdullanın Füzulisi... : esse / Mehman Qaraxanoğlu // Ədəbiyyat qəzeti. - 2020. - 4 iyul. - № 20/21. - S. 22-23.

**Qaraxanoğlu, M**. Mətn tutuquşu deyilmi?! : Kamal Abdullanın "Sirlərin sərgüzəşti" romanı haqqında / Mehman Qaraxanoğlu // Ədəbiyyat qəzeti. - 2019. - 17 avqust. - № 28. - S. 12-13.

**Qarayeva, S.** ADU-da "Təcrübədən əvvəl təcrübə" layihəsi : Kamal Abdulla / Sevinc Qarayeva // 525-ci qəzet. - 2018. - 17 noyabr. - № 203. - S. 7.

**Qeybullayeva, R**. Tarixi janr ənənəvi və yeni kontekstdə : K.Abdullanın "Yarımçıq əlyazma" romanı əsasında / Rəhilə Qeybullayeva // Azərbaycan. - 2008. - № 7. - S. 169-177.

**Qədir, C**. Düma ilə Coys arasındakı fərqli düşüncə modeli / Cavid Qədir // Ədəbiyyat qəzeti. - 2017. - 14 oktyabr. - № 36. - S. 14.

**Qəribova, J**. Var ilə Yox arasında : Xalq yazıçısı Kamal Abdullanın əsərlərində "Yox"un antologiyasına qısa bir baxış / Jalə Qəribova // 525-ci qəzet. - 2020. - 29 fevral. - № 24. - S. 16 ; 7 mart. - № 27. - S. 16.

**Qismət.** Yazıçının həyatdakı obrazı : Kamal Abdullanın 70 illiyinə həsr olunur / Qismət // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 26.

**Qurbanlı, S**. Sirr karuseli / Səfail Qurbanlı // Ədəbiyyat qəzeti. - 2024. - 22 noyabr. - № 45. - S. 16-17.

**Maral.** Yolçu yolda gərək, oxucu... : və ya oxumağın Kamal Abdulla yolu / Maral // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 25.

**Mehdi, N**. "Mənim Füzulim"i refleksiya edəndə : Kamal Abdullanın "Mənim Füzulim" kitabı əsasında / Niyazi Mehdi // Ədəbiyyat qəzeti. - 2020. - 8 fevral. - № 5. - S. 12.

**Mehdi, N**. "Sirlərin sərgüzəştini"ni mənim açarımla açanda : Romanı oxuyanda nəyi gördüm? Gördüm ki, uşaqlıqdan "1001 gecə" və başqa Şərq nağıllarında düşdüyüm şirin xəyallar dünyasına təzədən düşürəm / Niyazi Mehdi // Ədəbiyyat qəzeti. - 2019. - 23 noyabr. - № 41/42. - S. 24.

**Mehdi, N**. Kamal Abdullanın "Kitabi-Dədə Qorqud" poetikasına giriş" əsərindən bilinənlər : bir fəlsəfi terminin Azərbaycana gəlməsinin tarixçəsi / Niyazi Mehdi // Ədəbiyyat qəzeti. - 2018. - 17 mart. - № 10. - S. 12-13.

**Mehdi, N**. Sən o adamlardansan ki, hər yaşadığın il Azərbaycanı zənginləşdirən nələrinsə gəldiyi il olur : Kamal Abdulla - 70 / Niyazi Mehdi // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 11.

**Məcid, R**. Kamal Abdullanın sirli müdrikliyi / Rəşad Məcid // 525-ci qəzet. - 2020. - 2 dekabr. - № 165. - S. 17.

**Məmməd, T**. Füzuli üfüqü... : Kamal Abdulla - 70 / Tahirə Məmməd // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 24.

**Məşədiyeva, A**. Alim və yazıçı yaradıcılığının zirvəsində / Aynel Məşədiyeva // 525-ci qəzet. - 2020. - 24 noyabr. - № 159. - S. 12.

**Muradlı, X**. Ədəbi konservator, mistik realist : Əməkdar elm xadimi, Xalq yazıçısı Kamal Abdulla ilə "Ədəbiyyat söhbəti"ni təqdim edirik / Xəyalə Muradlı // Azərbaycan : qəzet. - 2019. - 30 oktyabr. - № 241. - S. 6.

**Mustafa, F**. Ədəbiyyatımızın Kamal Abdulla tarixi / Fazil Mustafa // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 20.

**Nağısoylu, M**. Harmonik bir bütövlük : Kamal Abdulla - 70 / Möhsün Nağısoylu, İ. Kazımov // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 10.

**Nağıyev, C**. Kamal Abdulla və onun dastan poetikası : Yazıçı Kamal Abdullanın "Alın yazısı hədər yazılmır" şeirinin təhlili : 1 şeir/2 rakurs / Cəlil Nağıyev // Azərbaycan : jurnal. - 2017. - № 10. - S. 186-201.

**Nargis.** Kamal Abdulla: Postmdernizmdən milli özünəməxsusluğa / Nargis // Ədəbiyyat qəzeti. - 2019. - 27 iyul. - № 26. - S. 22-23 ; 3 avqust. - № 27. - II yazı. - S. 18-19.

**Nargis.** Sirlərin sərgüzəşti romanı: postmodern labirintdə obraz, zaman və mövzu problemi : Kamal Abdullanın "Sirlərin sərgüzəşti" romanı haqqında / Nargis // Ədəbiyyat qəzeti. - 2020. - 2 may. - № 12. - S. 18-19.

**Natiq, G**. Sirrin ölümündən sonra baş verənlər : yazıçı Kamal Abdullanın "Sirlərin sərgüzəşti" romanı haqqında / Günel Natiq // 525-ci qəzet. - 2020. - 26 fevral. - № 22. - S. 15.

**Nəcəfzadə, Q**. Şəkillər. Kamal Abdulla - Qarışıq xətlər versiyası / Qəşəm Nəcəfzadə // Azərbaycan : qəzet. - 2015. - № 228. - S. 178-179.

**Nəsib, V**. Bir vəhdətin üç Kamal Abdullasına : 70 yaş atəşfəşanlığı / Vaqif Nəsib // Ədəbiyyat qəzeti. - 2020. - 22 avqust. - № 32/33. - S. 14.

**Nəzirli, K**. Oxumağa kitab var : Kamal Abdullanın poetik dünyasına səyahət / Kamran Nəzirli // Kaspi. - 2018. - 17 noyabr. - № 196. - S. 14-15.

**Paşayev, H**. Kamal Abdullanın Azərbaycançılıq və Kitabi-Dədə Qorqud kitabına ön söz / Hafiz Paşayev // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 4.

**Paşazadə, Y**. Yaqub Paşazadə : "Kamal Abdullanın əsərlərində qaldırılan problemlər həmişə aktualdır" / Yaqut Paşazadə // 525-ci qəzet. - 2018. - 24 noyabr. - № 208. - S. 9.

**Rüstəmxanlı, S**. Qorqudşünaslığın yeni zirvəsi və ya Kamal Abdulla fenomeni / Sabir Rüstəmxanlı // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 11.

**Sarıhüseynoğlu, V**. Əvvəl-axır çağlayanlar / Vaqif Sarıhüseynoğlu // Ədəbiyyat qəzeti. - 2018. - 15 dekabr. - № 47/48. - S. 23.

**Sarıhüseynoğlu, V**. Füzuli poetikasına üç başvuru və ya Füzuli kantatası : Kamal Abdulla - 70 / Vaqif Sarıhüseynoğlu // Ədəbiyyat qəzeti. - 2020. - 22 fevral. - № 7. - S. 12-13.

**Sarıhüseynoğlu, V**. Kimliyimizin yeni qolu : "Azərbaycan Tərcümə Ensiklopediyası" Kimliyimizin yeni qolu / Vaqif Sarıhüseynoğlu // Ədəbiyyat qəzeti. - 2018. - 20 oktyabr. - № 39. - S. 29.

**Səfərov, B**. Dəyərli alim və şəxsiyyət : Kamal Abdulla - 70 / Bayram Səfərov // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 14.

**Şahanə.** Xalq yazıçısı Kamal Abdullanın "Sirlərin sərgüzəşti" kitabının təqdimatı olub / Şahanə // 525-ci qəzet. - 2019. - 4 dekabr. - № 159. - S. 13.

**Taisoğlu, T**. O kim idi... uzaqdan yad bir adam kimi gəlib keçdi : Kamal Abdullanın esseləri haqqında / Tahir Taisoğlu // Ədəbiyyat qəzeti. - 2018. - 23 iyun. - № 24. - S. 15.

**Talıbzadə, A**. Vaxtı edam etmək : Kamal Abdullanın 70 yaşı / Aydın Talıbzadə // Azərbaycan : jurnal. - 2020. - № 12. - S. 89-95.

**Təyyaroğlu, Ş**. Bədii mətnin gözlənilməz sonluğu : Xalq yazıçısı Kamal Abdullanın "Kəklik" hekayəsinə bir nəzər / Şəhriyar Təyyaroğlu // 525-ci qəzet. - 2021. - 30 oktyabr. - № 199. - S. 19.

**Turan, A**. Qranulalar : təkcənəlikdən xilas olan mətnlər / Azər Turan // Ədəbiyyat qəzeti. - 2024. - 27 iyul. - № 28. - S. 5.

**Turan, A**. Sən ey qanadlı yolçu - Kamal Abdullanın zamansızlığı : Kamal Abdulla -70 / Azər Turan // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 32.

Türkiyədə "Mifologiya elçisi Kamal Abdulla ərmağanı" kitabı nəşr edilib // 525-ci qəzet. - 2020. - 10 dekabr. - № 171. - S. 9.

Türkiyədə Kamal Abdullanın yaradıcılığına həsr olunan elmi iş müdafiə olunub // Ədəbiyyat qəzeti. - 2019. - 3 avqust. - № 27. - S. 19.

**Uğurlu, F**. Elmlə sənətin qovuşağında : Xalq yazıçısı, akademik Kamal Abdullanın 70 yaşına / Fəxri Uğurlu // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 28.

**Vahid, M**. Kamal Abdullanın Laokoon... Laokoon... romanının poetikası : intermedial və intertekstual kontekst / Mətanət Vahid // Ədəbiyyat qəzeti. - 2023. - 9 dekabr. - № 47. - S. 14-15.

**Vahid, M**. Səhvlərimizdən edam kürsüsünə gedən yol : Kamal Abdullanın hekayələri çoxqatlı, çoxçözümlü, sirli və əksərən "açar"ını özündə gizləyən mətnlərdir / Mətanət Vahid // Ədəbiyyat qəzeti. - 2015. - 7 noyabr. - № 57. - S. 7.

**Vahid, M**. Ümidlərin göydə durna lələyi : esse / Mətanət Vahid // Ədəbiyyat qəzeti. - 2020. - 23 may. - № 15. - S. 18-19.

**Yaqubova, M**. Hacı Mir Həsən ağa Səyyahın "Sirlərin sərgüzəşti" risaləsi və ya müəllifin ölümsüzlüyü / Maral Yaqubova // Ədəbiyyat qəzeti. - 2019. - 28 dekabr. - № 53. - S. 18-19.

**Yaşar, K**. Kamal Abdullanın düzəltdiyi "Şah İsmayıl" : hekayə / Kamal Yaşar // Kaspi. - 2013. - 1-3 iyun. - № 98. - S. 18.

**Yusifli, C**. Bitmiş ömrün hekayəsi : Kamal Abdulla - 70 / Cavanşir Yusifli // Ədəbiyyat qəzeti. - 2020. - 5 dekabr. - № 54. - S. 12.

**Zaman, S**. Kamal Abdulla təxəyyülünün gücü, yaxud "Arşın mal alan"dan sonra / Sadiq Zaman // Ədəbiyyat qəzeti. - 2023. - 10 iyun. - № 22. - S. 12-13.

**Zaman, S**. Kamal Abdullanın diskursları. Bildirdiklərindən bilinənlərə : Niyazi Mehdinin yeni kitabı / Sadiq Zaman // Ədəbiyyat qəzeti. - 2024. - 31 avqust. - № 33. - S. 3.

**Zeynallı, C**. Kamal Abdulla ömrü / Cavid Zeynallı // 525-ci qəzet. - 2019. - 4 dekabr. - № 159. - S. 10.

**Zeynallı, C**. Səndəmi, Karvanbaşı? / Cavid Zeynallı // Ədəbiyyat qəzeti. - 2018. - 22 dekabr. - № 49/50. - S. 22-23.

**Zeynalova, S.** Zamanın fövqünə yüksələn yaradıcılıq : Kamal Abdulla-70 / Sevinc Zeynalova // 525-ci qəzet. - 2020. - 8 dekabr. - № 169. - S. 12.

**İnternetdən: Vikipediya**
**Mənbə:** ədəbiyyat qəzeti.az